Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Koçərli adına
Respublika Uşaq Kitabxanası



# NAXÇIVAN İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI-2018

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası

# NAXÇIVAN İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI-2018

*Respublika Uşaq kitabxanaları*
*üçün tövsiyə biblioqrafiyası*

**Bakı-2018**

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş. Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2018.-114 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# Tərtibçidən

Məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin 2016-cı il noyabrın 25-də Naxçıvan şəhərində keçirilən iclasında Tədbirlər Planı təsdiq olunmuş və icrasına başlanılmışdır. Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" rəsmi internet səhifəsi yaradılmışdır.

Azərbaycan və ingilis dillərində hazırlanan "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" rəsmi internet səhifəsi (www.imp.nakhchivan.az) 2018-ci il yanvarın 13-dən istifadəyə verilmişdir.

Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı keçiriləcək tədbirlərdə Muxtar Respublikanın mədəniyyətinin, onun zəngin turizm potensialının tanıdılması ilə yanaşı, həm də istehsal olunan məhsullarımızın təkcə İslam ölkələrində deyil, eyni zamanda dünyanın bir çox ölkələrində təbliği baxımından əhəmiyyətlidir.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"** adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** info@clb.az.

## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin lazımi səviyyədə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

**1.**Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

*Vasif Talıbov* – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

**Təşkilat Komitəsi sədrinin müavini**

*Əbülfəs Qarayev* – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədri

**Təşkilat Komitəsinin üzvləri**

*Nadir Hüseynov* – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Səyyad Salahlı* – Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Aynur Sofiyeva* – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Əsgər Abdullayev* – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

*Natəvan Qədimova* – Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri

*Məmməd Qəribov* – Naxçıvan Muxtar Respublikasının təhsil naziri

*Azad Cabbarov* – Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri

*İsa Həbibbəyli* – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Dağbəyi İsmayılov* – Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) baş direktorunun müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Urxan Ələkbərov* – Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Vasim Məmmədəliyev* – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

*Vasif Eyvazzadə* – Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi

*Əsgər İsmayılov* – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi

*Vüqar Babayev* – Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi

**2**.Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3**.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 2 iyun 2016-cı il.*

## İlham Əliyev İslam həmrəyliyinin Azərbaycan nümunəsini yaradır

### *Müsəlman dünyasının yeni intibah dalğası Bakıdan başlayacaq*

Azərbaycan tarixi həm də bir xalqın keşməkeşli inanc salnaməsini əks etdirir. Minilliklərin, əsrlərin sınaqlarında inandıqlarımız və tapındıqlarımız dəyişsə də, fərqli dinlərə sitayiş etsək də, bu gün tolerantlıq adlandırdığımız dözümlülüyə hər zaman sadiq qalmışıq və əks etiqada ehtiram göstərmişik.

Millət olaraq atəşpərəstliyə, xristianlığa, hətta ən qədim çağlarda bütpərəstliyə pənah gətirməyimiz inkarolunmaz tarixdir. Hər dövrün hərbi və siyasi durumu bizim inanc ünvanlarımızın dəyişməsinə təsirsiz qalmayıb.

VIII əsrdən etibarən başlayan ərəb yürüşləri Tanrının sonuncu elçisinin dininə - islama yönəlməmizə rəvac verib. Və gerçək tarix Babək mücadiləsi ilə yanaşı, islamın yayılmasına, təkmilləşməsinə böyük töhfələr vermiş azərbaycanlı sərkərdələrə və teoloq-alimlərə də şahidlik edir.

### *Ateizm və mövhumat arasında ən doğru orta yol*

1300 illik müsəlman mənsubiyyəti xalqın mənəvi dəyərlərinə, mental xüsusiyyətlərinə mühüm təsir göstərib. Ümumilikdə götürsək, islam tarixinin yüksəliş və tənəzzül dövrləri, yaxud mənəvi intibah və müasir ictimai-teoloji qeyri-müəyyənlik, xaos çağları da Azərbaycanda dini durumu müəyyənləşdirən əsas amil olub. Yəni müsbət meyillərini yaşamışıq, dağıdıcı təsirlərini də görmüşük.

XIX əsrin ikinci yarısından etibarən başlayan, ötən əsrin əvvəllərində daha geniş miqyas alan milli maarifçilik dalğasının da əsas məramı məhz islamın mənəvi təsirləri ilə kifayətlənməyi, dinin siyasi proseslərə qoşulmamasını, ictimai həyatda mütləq üstün mövqedən uzaqlaşdırılmasını diktə edirdi. Dinin bir qrup

nadanın əli ilə cəhalət, mövhumat mənbəyinə çevrilməsi, xalqın inkişaf səviyyəsinə əsaslı zərbələr vurması vətənpərvər sələflərimizi bu istiqamətdə fəal hərəkətə keçirdi. İslamın yanlış təmayüllərdən uzaqlaşaraq, insanların mənəvi yüksəlişinə rəvac verən, cəmiyyətdə mərhəmət hisslərini aşılayan sülh və etimad dini kimi təşəkkül tapması onların və elə indi biz müasir ziyalıların dəyişməz istəyidir.

Azərbaycan xalqı son bir əsrdir ki, ateizm və mövhumat arasında ən doğru orta yolu formalaşdırır. Bu yol dini cəhalətdən dünyəvi maarifçiliyə keçidi və bu kontekstdə islamın cəmiyyət həyatında yalnız müsbət rol oynamasını təşviq edir. Bu proses müstəqillik illərində dövlətin əsas prioritetlərindən birinə çevrilib. Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan bu siyasətin əsas mahiyyəti 13 əsrlik inanc dəyərlərimizin milli xüsusiyyətlərimizlə uzlaşdırılması və islamın Azərbaycanı digər ölkələrdə olduğu kimi, savaşa, məzhəblərarası konfliktlərə, cəmiyyətdə mənəvi durğunluğa sürükləməməsidir. Əksinə, əsl islam fəlsəfəsinə uyğun olaraq insanların mənəvi zənginliyinin artmasına təkan verməsidir.

Son 25 il ərzində çox istiqamətlər üzrə nümunələr, örnəklər yaradan ölkəmizdə islamın cəmiyyət və dövlət həyatına effektiv təsirlərini təmin edən, islamı zərərli və dağıdıcı təsirlərdən qoruyan mükəmməl Azərbaycan modeli formalaşıb. Bu model ölkədə məscidlərin sayını 17-dən 2000-ə qədər yüksəltməklə yanaşı, onları cəhalət yuvasına çevrilməkdən qoruyur. Prezident İlham Əliyevin xüsusi diqqət ayırdığı məsələlər - dini maarifçilik və ruhani zümrənin məzhəblərarası ünsiyyətə, əməkdaşlığa sövq edilməsi Azərbaycanda dini radikalizmin, ekstremizmin yayılmasına qarşı da əhəmiyyətli sipərdir.

### *Dini cəhalətdən dünyəvi maarifçiliyə doğru*

Azərbaycan dünyəvi dövlətdir. Əhalinin əksəriyyəti məhz dünyəvi yaşam tərzi sürür. Lakin ölkədə müəyyən təbəqə

mühafizəkar baxışlara malikdir. Bu qismin azad etiqad etməsi, dini ritualları maneəsiz həyata keçirməsi, ənənəvi həyatlarını sürmələri üçün hər cür şərait yaradılıb, bu, əslində, Konstitusiya normasıdır. Ölkədə məscidin olmadığı bir kənd belə yoxdur. Onların hamısı dövlətin hesabına ya tikilib, yaxud da bərpa-təmir olunub.

Prezident İlham Əliyev dəfələrlə ailəsi ilə birlikdə islamın müqəddəs məbədi olan Kəbə evinə ümrə ziyarəti edib, həmçinin tək Qafqazın deyil, ümumiyyətlə, Şərqin ən müasir, geniş, zövqlü ibadətgahları sırasında olan məscidlərinin ölkəmizdə tikilməsinin səbəbkarı olub. Ən əsası, İlham Əliyev də siyasi sələfi Heydər Əliyev kimi Prezident səlahiyyətlərinin icrasına başlayarkən Qurani-Kərimə and içib və dini tədbirlərdə mütəmadi iştirak edir. Azərbaycanda ruhanilərin səsi dövlət tərəfindən daim eşidilir, fikirləri nəzərə alınır, onlara hər cür dəstək göstərilir, fəaliyyətləri səmərəli tənzimlənir.

Zamanın sınağından uğurla çıxmış və digər ölkələrin timsalında öz mükəmməlliyini, bənzərsizliyini davamlı olaraq göstərən dövlətin din siyasəti ölkədə ictimai sabitliyin, dini etimad mühitinin, məzhəblərarası sağlam əməkdaşlığın əsas rəhnidir. Bu sahədə dövlət siyasətini həyata keçirən əsas strukturun - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xüsusən son iki il ərzindəki fəaliyyəti də diqqətçəkəndir. Komitənin rəhbərliyi, əməkdaşları Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən düzgün strategiyanın həyata keçməsi üçün Azərbaycanın bütün dini icmalarını, məscidlərini kəndbəkənd, şəhərbəşəhər ziyarət edir, real durumu öyrənir, dinin yalnız maarifçilik xüsusunda təbliğinə şərait yaradırlar.

Azərbaycan islam ölkələri içərisində müasir inkişaf xətti ilə seçilib. Son onillikdə müsəlman dünyasında baş verən ziddiyyətlər, savaşlar, terrorçu qruplaşmaların dövlətləri ələ keçirmələri kimi proseslər fonunda Azərbaycan artıq islam platformasının ən müasir, sabit ölkəsinə çevrilib, təriqətlərarası sülh və etimad mühiti burada etibarlı qorunur.

Şübhəsiz ki, son onillikdə digər müsəlman dövlətlərinin bugünkü acı mənzərəsini Azərbaycanın da yaşaması üçün xaricdən cəhdlər olunub, daxildə süni gərginlik yaradılmasına çalışılıb. İslam adı altında terrorçuluğu, savaşı, məzhəblər arasında qovğaları ölkəmizə ixrac etmək üçün dövriyyədə indi də planlar var. Lakin bunun qarşısı İlham Əliyev tərəfindən uğurla alınır.

***İslam VII əsrə dönüş deyil, gələcəyə baxışdır***

Təəssüf ki, bu gün dünyada islamı terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və buna qismən də nail olan məlum şəbəkələr var. Onların yaratdığı mənfi imic, əslində, islamın daxilindəki mənfi durumdan, parçalanmadan, maarifçilikdən uzaq düşməsindən qaynaqlanır. Müsəlman dəyərlərinin təbliği adı altında 1400 il öncəki yaşam və həyat tərzini zorən müasir insanlara tətbiq etmək, məscidləri ibadətgahlardan siyasi mərkəzlərə çevirmək, bir qrup avantüristin Allahın, Quranın, Peyğəmbərin adından "hökm" verərək dövlətləri parçalamaq, xalqları məhvə sürükləmək, hakimiyyətə gəlmək məqsədilə islamı təhrif etmək - budur günümüzün reallıqları.

Bu mənzərəni yaradanların əks sivilizasiyadan olduğunu deyə bilərik, amma bu, səbəblər sırasında heç də ilk deyil. Əsas səbəb islamın siyasi alətə çevrilməsinə yönələn cəhdlər, məzhəblərarası savaşlar və dini maarifçiliyin arxa plana keçməsidir. Bu cür rəzil yanaşmalar isə şübhəsiz ki, məlum Qərb dairələrinə öz məkrli niyyətlərini həyata keçirmələrinə şərait yaradır. Etiraf edək, islama ən böyük zərbə kənardan yox, məhz müsəlmanlardan - cahil düşüncə tərzindən, mövhumatçı təfəkkürdən gəlir.

Bu baxımdan, qeyd etdiyimiz Azərbaycan nümunəsi öz misilsizliyini tam sübut edir. Ölkəmizdə dinlə bağlı düzgün dövlət siyasətinin formalaşması, dini maarifçiliyin yüksək səviyyədə təşəkkül tapması vətəndaşlarımızın dini şüur

səviyyəsini, islama doğru yanaşmasını və baxışını təkmilləşdirib. Azərbaycanda mühafizəkar təbəqə anlayır ki, özünəməxsus yaşam tərzini sürməsinə heç bir maneə yoxdur, amma o, bunu başqalarına da zorən tətbiq etməyə cəhd edə bilməz.

Azərbaycan insanı üçün islam VII əsrə dönüş deyil, gələcəyə baxışdır. Vətəndaşlarımız bilirlər ki, xristianlığın, yəhudiliyin mövcud müasir siması məhz minilliklər öncəki dini ehkamları davamlı olaraq dövrün tələblərinə uyğunlaşdırmalarıdır və bu prosesin islamda gecikməsinin məsuliyyəti maddi-siyasi maraqlarını güzəştə getməyən ruhanilərin üzərindədir. Ərəb xalqının 1400 il öncəki yaşam tərzi, o coğrafiyanın tələb etdiyi həyat şərtləri, təfəkkür səviyyəsi bugünkü müasir Azərbaycan insanı üçün adekvat ola bilməz. Xalqımız heç vaxt islam ümməti içində əriyib, öz milli varlığından uzaqlaşmayıb, islamaqədərki zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, kimliyini unutmayıb. Azərbaycan vətəndaşı islamın humanist fəlsəfəsini, elm və təhsilə vacib meyar kimi yanaşmasını, savaşlara qarşı olmasını əsas götürür.

Təsadüfi deyil ki, islam dünyasında "Allah" adı altında sünnilərin şiə məscidlərini dağıtması, şiələrin sünni məhəllələrini topa tutması, sələfilərin isə hər iki təriqət mənsublarını öz qanlı terroruna qurban etməsi fonunda Azərbaycanda hər üç məzhəbin təmsilçiləri Heydər məscidində çiyin-çiyinə dayanaraq Tanrıya dualar edir, vəhdət namazı qılırlar. Fərqli islam cərəyanlarının yalnız Azərbaycanda bir amal ətrafında Allaha tapınması, birləşməsi bizi azərbaycanlı olaraq nə qədər sevindirsə də, bunun başqa ölkələrdə təkrarlanmaması müsəlman olaraq bizi çox təəssüfləndirir.

### *İlham Əliyevin yeni missiyası*

İlham Əliyev beynəlxalq miqyasdakı "qlobal sülh və əməkdaşlıq" hərəkatının əsas öncüllərindəndir. Prezident sivilizasiyalar və dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı

etimadın yaradılması üçün mühüm fəaliyyət göstərir. Bu sahədəki məqsədyönlü, düşünülmüş siyasətin nəticəsidir ki, "Tolerantlığın Azərbaycan nümunəsi" dünyanın qəbul etdiyi və örnək göstərdiyi modelə çevrilib. Bakı ümumdünya problemlərini həll etmək üçün fərqli dinlərin təmsilçilərini bir araya gətirən mərkəz kimi tanınır. Hər il ölkədə bu yönümdə çoxsaylı qlobal forumlar, konfranslar təşkil olunur.

Dünyanın ən böyük məzhəbinin başçısı, 1 milyard 300 milyondan artıq insanın mənəvi lideri Roma Papası Fransisk Bakıya səfərə gəlir, Azərbaycanı dinlər arasında faydalı əməkdaşlığın etibarlı ünvanı kimi tanıdığını söyləyir və başqa ölkələrdə etmədiyi ziyarəti gerçəkləşdirir: fərqli dinin məbədinə - Heydər məscidinə gedir!

XXI əsrdə əsas qan çanağı, savaş mənbəyi, terror yuvası təəssüf ki, islam dünyasıdır. İlham Əliyevin son dövrlərdəki fəaliyyəti göstərir ki, qlobal miqyasda sülhü əldə etmək üçün ilk növbədə müsəlman dünyasında birliyə nail olmaq, məzhəblər arasında etimad yaratmaq, müasir düşüncə tərzini yaymaq, cəhalətdən uzaqlaşmaq gərəkdir.

Prezidentin bu sahədəki fəaliyyətinin ilk istiqaməti Azərbaycan nümunəsində İslamın kamil, təkmil, yüksək mənəvi etiqad üslubunu yaratmaq və din-dövlət münasibətlərini düzgün məcraya yönəltməkdir.

İlham Əliyevin liderliyində Azərbaycan artıq yeni təşəbbüslə çıxış edir: İslam həmrəyliyinə nail olmaq! Bunu həyata keçirməklə həm daxili qovğalara son qoymaq, həm də islamın əsl mahiyyətini özünə qaytarmaq, onu sülh və sabitlik ideyalarının tərənnümçüsünə çevirmək mümkündür.

Müsəlman dünyasında müasirliyin, kamilliyin, sabitliyin, inkişafın ən favorit ünvanı olan Azərbaycan öz üzərinə yeni missiya götürür. Güclü müsəlman ölkələrindən Səudiyyə Ərəbistanının, İranın, Qətərin islamın bir məzhəbini konstitusion normaya çevirib, təriqəti dövlət siyasətinin əsası elan etdiklərini, yaxud digər böyük dövlət Türkiyədə müxtəlif dini camaatın

siyasətə zorən daxil olaraq dövlətin əsaslarını dağıtmağa çalışmalarını, həmçinin Pakistanın, Misirin və digər ölkələrin daxili gərginlik yaşamalarını nəzərə alsaq, Azərbaycanın İslam həmrəyliyini yaratmaq prosesində liderliyi şəksiz görünür.

"Çalışacağıq ki, islam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar" - İlham Əliyevin bu fikirləri onun yeni missiyasının əsas məramıdır.

Tam yüz il öncə - XX əsrin əvvəllərində sələflərimiz islam dünyasında mədəniyyətdən incəsənətədək, insan hüquqlarından mətbuat azadlığına qədər çoxsaylı ilklərin müəllifləri oldular. Müsəlman aləmində ilk demokratik respublikanı da məhz Azərbaycan xalqı təsis etdi.

Yüz il sonra - XXI əsrin ikinci onilliyində Azərbaycan yenə də öndədir. Bu dəfə hədəfimiz daha müqəddəsdir: əvvəl öz ümmətini, sonra isə dünyanı qana boyayan savaşlara son qoymaq, İslam həmrəyliyini yaratmaq, müsəlman aləmini dünyanın ən inkişaf etmiş, müasir sivilizasiyasına çevirmək!

Beləliklə, "Tolerantlığın Azərbaycan modeli", "Multikulturalizmin Azərbaycan örnəyi", "Sivilizasiyalararası əməkdaşlığın Bakı Prosesi" kimi qlobal təşəbbüslərin arxasınca İlham Əliyev "İslam həmrəyliyinin Azərbaycan nümunəsi"ni formalaşdırır. Və müsəlman dünyasının yeni intibah dalğası artıq Bakıdan başlayır...

# Görkəmli şəxslər İslam və Naxçıvan haqqında

Qurani-Kərim neçə əsrlərdir ki, dünya müsəlmanlarının həyat yolunu müəyyən edib, onları yaşadıb, onların bəşəriyyətdə özünəməxsus yer tutmalarını təmin edibdir.

İslam dini yaranandan indiyə qədər Kürreyi-ərzin insanlarının çox bir hissəsini düz yola, ədalətə, saflığa, paklığa, yüksək mənəviyyata yönəltmiş və onların belə yaşamasını təmin etmiş müqəddəs bir dindir. İslam dini bəşər tarixində misilsiz xidmətlər göstərmiş, insanların, müsəlmanların yüksək mənəvi-əxlaqi dəyərlərə nail olmasını təmin etmiş və bu dinə itaət edən insanları dünyanın bütün əzab-əziyyətlərindən, keşməkeşlərindən keçirib onların yaşayışını təmin etmiş, onları yaşatmışdır.

Naxçıvan mənim ana torpağımdır.

Mən istərdim ki, Siz də, o cümlədən Naxçıvandan kənarda yaşayan naxçıvanlılar da naxçıvanlı adını şərəflə daşıyasınız.

Müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir. Mən bu torpağın qarşısında baş əyirəm.

Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan müstəqil dövlət kimi islam həmrəyliyinə töhfəsini verir. Bütün müsəlman ölkələri ilə biz çox mehriban münasibətlər qurmaq əzmindəyik. İslam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq.

İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir, tolerantlıq dinidir.

Mən çox şadam ki, qədim Naxçıvan bu gün yeniləşir, yenidən qurulur, gözəl binalar tikilir, xiyabanlar salınır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, öz ənənələrimizə, öz köklərimizə böyük hörmətlə yanaşırıq. Biz öz mədəni, dini və tarixi irsimizlə fəxr edirik.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri*

Naxçıvan - Mirzə Cəlilin, Hüseyn Cavidin, Bəhruz Kəngərlinin vətənidir.

**İsa Həbibbəyli**,
*Əməkdar elm xadimi, professor*

Naxçıvan özünün zəngin mədəniyyəti, sənət və musiqi ənənələri, istedadlı insanları ilə fərqlənən bir diyardır.

**Çingiz Axundov,**
*Naxçıvan Dövlət Filarmoniyasının bədii rəhbəri, xalq artisti*

“Xristianlıqla yanaşı, bu gün İslam dini də Almaniyanın bir hissəsidir.”

**Kristian Vulf,**
*Almaniya prezidenti*

“İslam böyük bir dindir”.

**Barak Obama,**
*ABŞ-ın 44-cü prezidenti*

Müsəlmanlar öz xilaslarını Quran vasitəsilə və Quranda tapacaqlar.

**Əhməd bəy Ağaoğlu,**
*ictimai xadim, pedaqoq və yazıçı*

Bütün bəşəriyyət Hz. Məhəmmədin insanlığı ilə öyünməlidir. Çünki o zat, ümmiliyi ilə yanaşı, on üç əsr əvvəl elə qanunlar və əsaslar gətirmişdir ki, biz avropalılar iki min il sonra Onun həqiqətinə və qiymətinə çata bilmərik.

**Shobel**

Biz Avropa millətləri mədəni imkanlarımıza rəğmən Hz. Məhəmmədin son pilləsində olduğu pilləkənin ilk pilləsindəyik. Şübhə yoxdur ki, bu yarışda heç kimsə onu keçə bilməyəcəkdir.

**Höte,**
*alman şair-dramaturqu,*
*mütəfəkkir və naturalist*

Dünyaya ən çox təsir edən şəxslərin siyahısının başında Məhəmmədin adını çəkməyim bəzi oxucularımı təəccübləndirəcək, bəziləri isə məni tənqid edəcəklər. Lakin dünyada həm dünyəvi, həm də dini cəhətdən ən müvəffəqiyyətli yeganə insan Odur. Demək olar ki, Məhəmmədin İslam dini üzərindəki şəxsi təsiri, İsa Məsih və Əziz Pavlovsun xristianlıq üzərində birgə təsirindən daha çoxdur. Dünyəvi və dini təsirin tarixdə analoqu

görünməmiş şəkildə birləşməsi Məhəmmədin tarixin ən önəmli şəxsiyyəti olmasına kifayətdir.

**Michael Hartl,**

*Kornel Universitetində(Ədəbiyyat), Nyu York Universitetində (hüquq) müəllimi, Adelphi Universitetində fizik, "100 böyük şəxsiyyət"kitabının müəllifi*

“Məncə Məhəmməd həqiqi bir peyğəmbərdir. Ayrıca aramızda heç kimsənin müsəlmanlığı qəbul etməsi kimi bir təhlükə də olmadığından (xristianlara aid bir konfransdakı çıxışından) Onun bütün yaxşılıqlarını düzgün söyləmək istəyirəm. Onun sirrinə vaqif olmağın yolu budur. Hazırda yüz səksən milyon insan 1200 ildən bəridir ki, onu özlərinə rəhbər etmişdirlər.

Onun haqqında necə pis düşünə bilirsiniz. Xeyir, mən bunu qəbul edə bilmərəm. O, batil, zavallı və intiqamçı deyildir. Gətirdiyi mesaj gerçəktir. O səmimi olmaq üzərə yaradılmışdır.

Bu zatın ətrafinda məqsədyönlü yığdığımız yalanlar bizim üçün sadəcə bir ayıbdır. Səssiz və böyük bir ruh, ancaq, ciddi ola bilən bir şəxs... Məqsədi dünyanı aydınlatmaqdı, çünki dünyanı Yaradan belə əmr etmişdir.

Məhəmməd yola getməyən qəbilələri və köçəri bədəviləri iyirmi ildən artıq bir müddətdə təkbaşına birləşdirərək güclü və sivil millətə çevirmişdir. Mən bu adamın igidliyindən qürur duyuram. Bizlərdən kimlərinsə Məhəmməd ümmətinə çevrilməsindən qorxmaq gərək deyildir.

Bəzi xristianlar İslama irad və tənə olaraq deyirlər: “Məhəmməd (s.ə.s.) öz dinini qılınc gücünə yaymışdır. Yəni, əgər qılınc olmasaydı, bu din dünyaya səs salmazdı”. Bu sözü deyənlər nə qədər həqiqətdən uzaq, yanlışdadırlar! Onlar yaxşı fikirləşməlidirlər ki, bu qılıncı qınından çıxaran, onun şüasını Musa ibn Nəsir, Tariq ibn Ziyad və digər böyük fatehlərin əli ilə Fransa, İspaniya dağlarının yüksəkliklərinə, Mədinədən Səmər-

qəndə qədər əraziyə, Misir ehramlarının üzərinə yayan hansı qüvvə idi? Şubhəsiz, bu qüvvə Məhəmmədin (s.ə.s) dini idi”.

**Thomas Carlyle,**
*Şotland filosofu, satirik yazıçı, esseist, tarixçi, müəllim və“Qəhrəmanlar və qəhrəmanların kultu” adlı əsərin müəllifi*

Hindistandan İspaniyayadək islam sivilizasiyası həmişə inkişafda olmuşdur. Xristian sivilizasiyası zəiflədiyi halda, islam sivilizasiyası inkişafını davam etdirmişdir. Bizlərə elə gəlir ki, sivilizasiya Qərbi Avropa sivilizasiyasıdır, lakin bu, məhdud düşüncə tərzidir.

**Professor Bertrand Rusel,**
*“Şərq fəlsəfəsinin tarixi" kitabından*

14 əsr keçməsinə rəğmən Hz. Məhəmməd bu zamanın rəhbəri, tək hidayət rəsuludur.

**Raymons Leronge,**
*Fransız sosioloq*

Mən şəxsən Hz. Məhəmmədin heyranıyam.

***V. D. Eratsen,***
*sosioloq*

Bütün zamanların ən böyük lideri Məhəmməd idi.

**Jules Masserman,**
*professor*

Məhəmməd həyatında ən böyük uğurları qılınc gücünə yox, mənəviyyatının nüfuzetmə qabiliyyəti sayəsində qazanmışdır. Onun nəsihətləri həmfikirlərini ağıl və din çərçivəsində indi də

birləşdirir. Mən qəti fikirdəyəm ki, Allah təkdir, Məhəmməd isə onun Rəsuludur.

**Edvard Gibson,**
*ingilis tarixçisi*

Böyük İslam Peyğəmbəri Uca Yaradanın qatına çıxıb onunla görüşmüşdür. Mən Meraca bütün qəlbimlə inanıram.

**F.Dostoyevski,**
*Rus roman yazıçısı*

Böyük liderlərin həyatı və xarakterləri ilə deyilən fikirlərin heç biri İslam Peyğəmbəri üçün söylənilə bilməz.

**B. Smith,**
*model, yazıçı*

Sənin əsrində yaşamadığım üçün çox üzgünəm. Ey Məhəmməd! Quran Allahın kitabıdır. İnsanlıq sənin kimi böyük insanı bir dəfə görmüş bir daha görə bilməyəcəkdir. Sənin önündə sayqı və hörmətlə əyilirəm.

**Prens Bismark,**
*Prussiya və Almaniyanın XIX əsr*
*görkəmli dövlət xadimi*

Mən bu heyrət doğuran insanın həyatını oxudum. Mən onu insanlığın xilaskarı kimi görürəm. Onu belə tanımağımız lazımdır. O bu gün yanımızda olsaydı, dünyanın bütün problemlərini bir qəhvə içimində həll edərdi.

**Bernard Shaw,**
*İrlandiyalı sosialist, dramaturq*

İslam həyatda qılınc gücünə deyil, milyonlarla adamın qəlblərinə hakim kəsilmiş Məhəmməd peyğəmbərin (s.ə.s.)

ləyaqəti sayəsində yer tutmuşdur. Məhəmməd peyğəmbər (s.ə.s.) qarşısında duran vəzifəni layiqincə yerinə yetirmiş, dostlarına və ardıcıllarına həmişə sədaqət nümayiş etdirmiş, islam ideyalarını həyata keçirmək üçün fədakarlıq göstərmiş bənzərsiz şəxsiyyət kimi sevilməkdədir.

**Mahatma Qandi,**
*Hindistan Azadlıq Hərəkatının*
*siyasi və ruhani lideri*

"Biz Məhəmmədin peyğəmbərliyini qəbul etməyə borcluyuq. O, xristianlığın və iudaizmin yanlış fikirlərinin nə dərəcədə təhlükəli olduğunu yaxşı başa düşürdü. Məhəmməd həyatını təhlükə altında qoyaraq bütpərəstləri təkallahlığa çağırmağa başlamışdı. O, təkcə bəşər tarixinin böyük şəxsiyyəti olmamışdır. Biz onu Allahın Yer üzündə böyük elçisi kimi qəbul etməliyik".

**Karl Marks,**
*alman filosofu, siyasətçisi,*
*marksizm-leninizm nəzəriyyəsinin banisi*

"İslamın əsası çox sadədir, onun məğzi belədir: "İbadət üçün Allahdan savayı məbud yoxdur, Məhəmməd də Allahın Yer üzündəki elçisidir. Bu Kitabda, yəni, Quranda epoxamızın elmlərinin ziddinə heç bir şey yoxdur. İslam dini arxasınca gedilməyə layiq dindir".

**III Qustav,**
*İsveç kralı*

"Avropa böyük sarsıntı qarşısındadır. Üzdə hər şey gözəl görünsə də, içdə belə deyildir. Stress, düşüncəsizlik, intihar, ruhi xəstəliklər, əxlaqsızlıq, alkoqol və narkotik hərisliyi, quldurluq, zorlama, zöhrəvi xəstəliklər baş alıb gedir. Adamların bir-birinə

sevgisi və inamı yoxa çıxıb. Hamıda ölüm xofu var. Ailələr dağılır, ailə üzvləri arasında əlaqələr pozulur. Dövlət rəhbərləri yaranmış vəziyyətdən çıxış yolu tapa bilmirlər. İntellektual dairələr mənəvi boşluqda fəaliyyət göstərə bilmirlər. Avropanın qarşısında bir seçim, bir xilas yolu var. Bu, islam yoludur. Digər seçim yoxdur".

**Riçard Bellin,**
*İngilis alimi*

"Mühit istədiyini edir və həyatın mənasının anlaşılması məsələsində kilsəni öz arxasınca aparır. Dünyada xristian dininin təliminə zidd olan həyat tərzi meydana gəlmiş və adamlar da həmin həyat tərzindən qaça bilməmişlər. Nəticədə insanlar bütpərəstlik həyatından da pis həyatda yaşayırlar. Kilsə də həmin həyata nəinki haqq qazandırır, həttə xristianlıq təliminin bundan ibarət olduğunu təsdiq edir. Xahiş edirəm ki, məni Məhəmməd ümməti hesab edəsiniz". Məhəmməd hörmət və sayqıya artıqlaması ilə layiqdir.

**Lev Tolstoy,**
*rus yazıçısı, mütəfəkkiri*

İnsan hansı kriteriyalarla ölçülürsə ölçülsün, əcəba Hz. Məhəmməddən daha böyük insan tapıla bilərmi?

**Lamartine,**
*Fransız yazar, şair ve siyasətçi*

"Məhəmməd (s.ə.s.) 8 iyun 632-ci ildə vəfat etdiyi zaman bütün qəbilələri Müsəlmanlaşdırmışdı. Onun əmr etdiyi hicab (təsəttür) qadınları təhqir etmək deyil, ucaltmaq üçün gətirdiyi bir protokol idi. Onun bu hərəkəti qərbi imperialistlərə qarşı idi. O sadəcə öz cəmiyyətini deyil, eyni zamanda insanlıq tarixini

düzəltmək və ədalətli bir cəmiyyət qurmaq hədəfini önə qoymuşdu və bunu bacardı da.”

**Karen Armstrong,**
*Katolik rahibə,*
*Yəhudi tədqiqatçısı*

“İslam sülh, azadlıq, bərabərlik və ümid dinidir”.

**Abel Şavyer,**
*keçmiş portuqaliyalı futbolçu*

“İslam dinini seçdim, çünki bu, mənə azad olmaq imkanı verir və mən bundan sonra özümü daha yaxşı hiss edirəm. Mən hər zaman elə bir şey axtarırdım ki, mənim düşüncələrimi, hisslərimi rahatlaşdırsın. Mən onu İslamda tapdım. İndi mən mehriban olmağı xoşlayıram. Mən pivənin paytaxtı olan Bavariyada spirtli içki qəbul etmirəm... İslam hər şeydir.”

**Frank Riberi,**
*fransalı futbol ulduzu*

# Giriş

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Aparılan arxeoloji tədqiqatlar nəticəsində Naxçıvanda e. ə. II-I minilliklərə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə coğrafi yaxınlıqda olan Naxçıvan mədəniyyəti buradakı tayfaların həyatına çox böyük təsir göstərmiş, ərazidə erkən şəhər mədəniyyəti və sinifli cəmiyyətin əlamətləri daha tez meydana çıxmışdır.

Naxçıvan şəhəri haqqında yazılı mənbələrdəki ilk məlumatı tarixçi İosif Flaviy (e. ə. I əsr) və yunan coğrafiyaçısı Klavdi Ptolemey özünün «Coğrafiya» əsərində vermişdir. Həmin əsərdə Naxçıvanın adı «Naksuana» kimi qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, Naksuana Naxçıvan sözünün fonetik variantı deyil. Yunan və romalıların dilində fışıltılı səslər ç, c, s, j olmadığından onlar Naxçıvanı Naksuana adlandırmışlar.

Şəhər haqqında orta əsr ərəb və fars mənbələrinə görə (İbn Xordadbeh, Əl-Biruni, Bakuvi və b. tərəfindən) şəhərin adı Nəşavə, Nəqçuvan şəklində işlənmişdir. Bəzi mənbələrdə isə (Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Övliya Çələbi və b.) arasında mövcud olan, lakin elmi əsası olmayan mülahizələrə görə Naxçıvan toponiminin mənası əfsanəvi Nuh peyğəmbərin adı ilə bağlıdır, yəni Nuhçuvan, Nuhun yurdu.

Naxçıvan e. ə. IX-VI əsrlərdə Manna, sonra isə Midiya dövlətlərinin tərkibində olmuş, e. ə. 550-ci ildə Midiyanın süquta uğramasından sonra Əhəmənilər imperiyasının hakimiyyəti altına düşmüşdür. Yaxın və Orta Şərqin ticarət yollarının qovşağında yerləşən Naxçıvan Əhəmənilər imperiyasının dağılmasından sonra e. ə. IV əsrin sonlarından e. ə. I əsrin birinci yarısınadək Atropatena dövlətinin tərkibində olmuşdur. Yaxın və Orta Şərqdə mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzinə çevrilən

Naxçıvanın Kiçik Asiya ölkələri ilə, İranın, Gürcüstanın şəhərləri ilə və Qara dəniz limanları ilə ticarət əlaqəsi var idi.

İran-Bizans müharibəsi zamanı 625-ci ildə Bizans imperatoru İrakli Naxçıvanı tutaraq şəhəri yerlə yeksan etdi. Sonralar bərpa olunan Naxçıvan şəhəri 654-cü ildə ərəblərin əlinə keçdi. Naxçıvan şəhəri ərəb xilafətinin dağılmasından sonra əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətinin tərkibinə daxil olmuşdur. X əsrin sonlarından XI əsrin ortalarınadək Naxçıvan Rəvvadilər dövlətinin tərkibində olmuşdur. 1054-cü ildə Səlcuqların Azərbaycana gəlişi və Rəvvadilər dövlətinin ləğvi ilə Naxçıvan Səlcuqların hakimiyyəti altına düşdü. Səlcuq sultanlığı parçalandıqdan sonra Naxçıvan yeni yaranmış Atabəylər dövlətinin tərkibinə qatıldı. Atabəylər dövlətinin əsas ticarət və sənətkarlıq mərkəzinə çevrilən Naxçıvan şəhəri XII əsrin 30-cu illərinin sonundan 1175-ci ilədək bu dövlətin paytaxtı olmuşdur. XII əsrdə Naxçıvanda təxminən 150-200 min əhali yaşayırdı. Şəhərdə toxuculuq, zərgərlik, dulusçuluq, xalçaçılıq və başqa növ sənətkarlıq sahələri inkişaf etmişdir. 1221-ci ildə monqolların Azərbaycana ilk yürüşü zamanı Naxçıvan şəhəri böyük dağıntılara məruz qalmışdır. 1225-ci ildə Atabəylər dövlətinin zəifləməsindən istifadə edən Cəlaləddin Xarəzmşah Naxçıvanı işğal etdi. 1257-ci ildən Naxçıvan Elxanilər (Hülakulər) dövlətinin tərkibinə qatıldı. Hülakulərin zəifləməsindən sonra Naxçıvan əvvəlcə Çobanilərin, sonra isə Cəlalilər sülaləsinin hakimiyyəti altına düşdü. 1386-cı ildə Naxçıvanı əvvəlcə Qızıl Orda xanı Toxtamış, sonra isə Əmir Teymur işğal etdi. Naxçıvan 1412-ci ildən Qaraqoyunlu, 1468-ci ildən isə Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Ağqoyunlu - Səfəvi müharibəsi zamanı 1501-ci ildə Şərur düzündə baş vermiş toqquşmada Səfəvilər qalib gələrək şəhəri ələ keçirdilər. Sonrakı mərhələdə Naxçıvan Səfəvi - Osmanlı müharibələrində hərb meydanına çevrildi. I Şah Abbas 1603-cü ildə Naxçıvanı hakimiyyəti altına alaraq buranı hərbi düşərgəyə çevirdi. Səfəvilər dövlətinin apardığı islahatlar nəticəsində Naxçıvan XVI

əsrdə Təbriz, XVII əsrdən isə Çuxursədd bəylərbəyliklərinin ərazisinə daxil edilmişdir. XVI-XVII əsrlərdə buranın hakimləri Kəngərli tayfa başçılarından təyin olunurdu. Səfəvilərin süqutundan sonra Naxçıvan XVIII əsrin əvvəllərində Nadir şah tərəfindən tutulmuşdur. 1747-ci ildə Nadir şahın ölümündən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü xan elan etdi. Naxçıvan xanlığın paytaxtına çevrildi. 1827-ci il iyunun 26-da Naxçıvanı Çar Rusiyasının qoşunları işğal etdi. Rusiya-İran müharibələrinin nəticəsi olaraq 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Naxçıvan Rusiya imperiyasının tərkibinə qatıldı. 1841-ci ildə Gürcüstan - İmeretiya quberniyası tərkibində Naxçıvan qəzası yaradıldı. 1870-ci ildən başlayaraq çarizmin keçirdiyi islahatlar nəticəsində Naxçıvanda ticarət, sənaye, səhiyyə və mədəni sahələrdə irəliləyişlər baş verdi. 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində Naxçıvanda da kütləvi qətllər törədildi. Sonralar bu hadisə 1918-ci ildə təkrarlandı. 1918-ci ildə Naxçıvanda Araz Türk Respublikası yaradıldı. 1919-cu ilin əvvəllərində ingilislərin Naxçıvanı tutması ilə Araz Türk Respublikası süquta uğradı. 1920-ci il iyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti elan edildi. 1921-ci ilin yanvarında keçirilən referendumda əhalinin 90 %-i muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmağa səs verdilər. 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars müqavilələri ilə Naxçıvan Muxtar Respublikasının statusunun əsası qoyuldu. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edildi və Naxçıvan paytaxt oldu.

Naxçıvan Muxtar Respublikası şimalda və şərqdə Ermənistan Respublikası (246 km), qərbdə və cənubda Türkiyə (11 km) və İran İslam Respublikası (204 km) ilə həmsərhəddir. Muxtar Respublikanın Ermənistanla təbii sərhədini, əsasən Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şimal qərbdən cənub şərqə doğru 158 km məsafədə uzanır. Şimalda ən ucqar nöqtəsi Saraybulaq silsiləsinin Şərur rayonu ərazisindəki Kömürlü dağı (2064 m), ən

cənub nöqtəsi isə Arazın sol sahilində 600 m yüksəklikdə yerləşən Zerəni dəmiryol stansiyasıdır. Şimaldan cənuba doğru ən böyük məsafəsi 75 km-ə bərabərdir. Qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının 1920-ci ildə sovet rəhbərliyi tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44-45 km



enində zolaq Araz çayına doğru uzanaraq, Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının qalan ərazisindən ayırmışdır. 1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuş, 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdi: Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad. 1930-cu ilin birinci yarısında Şahbuz rayonu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa, Ordubad, Əbrəqunus rayonları yaradıldı. 1948-ci ildə Əbrəqunus rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona - Naxçıvan (1978-ci ildən Babək), Şərur, Şahbuz, Culfa və Ordubad rayonlarına bölünmüşdür. 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanına əsasən Türkiyə ilə həmsərhəd bölgənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq, Sədərək kəndi və ona məxsus ərazilər əsasında Sədərək rayonu yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2004-cü il 19 mart tarixli qanuna əsasən Kəngərli rayonu yaradılmışdır.

Hazırda 7 inzibati rayona - Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli rayonlarına bölünmüşdür. 5 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şahbuz, Şərur), 8 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi, 207 kəndi vardır. Azərbaycan Respublikasının 1995-ci ildə referendum yolu ilə qəbul olunmuş yeni Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Muxtar dövlətin özünün Konstitusiyası, Ali Məclisi, Nazirlər Kabineti və




Ali Məhkəməsi vardır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Konstitusiyaya əsasən Muxtar Respublikanın Ali vəzifəli şəxsidir. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Konstitusiya ilə onun səlahiyyətinə aid edilən məsələlər üzrə fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir. Naxçıvan Muxtar Respublikasının qanunları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanır.

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının dövlət himnidir. Naxçıvan Muxtar Respublikasında idarəetmə sistemi Azərbaycan Respublikası ilə eyniyyət təşkil edir. Muxtar respublikanın şəhər və rayon ərazi vahidləri icra hakimiyyətləri tərəfindən idarə olunur. İcra hakimiyyətlərinin başçıları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunurlar. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən muxtar respublika parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyasında muxtar respublikanın rəsmi adından «Sovet Sosialist» sözləri çıxarılmış, qanunverici hakimiyyət orqanının adı dəyişilərək Ali Məclis qoyulmuş, ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ermənistan (sərhəd xəttinin uzunluğu 246 km), Türkiyə (11 km) və İranla (204 km) həmsərhəddir. Moskva (1921-ci il, 16 mart) və Qars (1921-ci il, 13 oktyabr) müqavilələri imzalanarkən 6 min kvadrat kilometrdən artıq ərazisi olan Naxçıvan Muxtar Respublikasının torpaqları əsassız ərazi iddiası irəli sürən Ermənistan tərəfindən Moskvadakı güclü erməni lobbisinin himayəsi ilə, qanunsuz şəkildə və hissə-hissə ilhaq olunaraq (1924,1928 fevral, 1929 may, 1969) 5,3 min kvadrat kilometrə endirilmişdir.

Azərbaycana qarşı ədalətsiz müharibəyə başlayan Ermənistan Respublikası tərəfindən 1991-ci ildən tam iqtisadi blokadaya alınan Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Kərki kəndi 1990-cı il yanvarın 19-da ermənilər tərəfindən işğal olunmuşdur. Müharibə nəticəsində muxtar respublikadakı bir qəsəbə və 3 kəndin əhalisi ata-baba yurdundan didərgin düşmüşdür.

4 dekabr 2001-ci il Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsünə qismən dəyişikliklərin edilməsi haqqında» Qanuna əsasən Naxçıvan Muxtar Respublikası Babək rayonunun Əliabad inzibati dairəsi Naxçıvan şəhərinin tərkibinə verilmişdir. Şəhərdə 1 qəsəbə (Əliabad) və 5 kənd vardır. Şəhərin ərazisi 191,57 kvadrat kilometrdir. Əhalisi 451 min 132 nəfər (1 avqust, 2017), iqlimi kontinental, orta temperatur yanvarda - 3,8 C, iyulda 26,9 C, illik yağıntı 236 mm-dir.

Naxçıvanın inkişafı ötən əsrin 70-ci illərində möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə başlanmışdır. Naxçıvan XX əsrin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində blokadaya düşmüş, 1991-ci ildən qaz xətti kəsilmiş, 1992-ci ildən dəmir yolu bağlanmışdır. Müstəqillik əldə etdikdən sonra Naxçıvanda Şahmat məktəbi, Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi, Naxçıvan Dövlət Universitetinin yeni beşmərtəbəli korpusu, Elektron kitabxana, Hüquq və Sosial idarəetmə fakültəsi üçün korpus, Gömrük Komitəsi üçün yeni bina, Milli Bank, Əlillərin Reabilitasiya Mərkəzi, Heydər Əliyev adına məktəb və bir sıra digər məktəblər, əlillər üçün yeni yaşayış binası tikilmişdir. Naxçıvanda Hüseyn Cavidin məqbərəsi ucaldılmış, onlarla inzibati binalar əsaslı təmir edilmiş, Heydər Əliyev parkı, Əcəmi, Dədə Qorqud seyrəngahları salınmış, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü və Heydər Əliyev adına məktəbin həyətində heykəli, Babəkin, Koroğlunun, Cəlil Məmmədquluzadənin, Əcəmi Naxçıvaninin heykəlləri, sənaye-istehsal kompleksləri yaradılmış, müasir tələblərə cavab verən «Qrand otel» və digər mehmanxanalar, restoranlar tikilmiş, beynəlxalq standartlara cavab verən hava limanı naxçıvanlıların istifadəsinə verilmiş, bir çox quruculuq işləri aparılmışdır. Bütün bunlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı, şəxsiyyəti və siyasi fəaliyyəti ilə bağlıdır.

Naxçıvanda radio 1932-ci ildə qovşaq kimi fəaliyyət göstərmiş, 1936-cı ildən isə muxtar respublikanın ərazisində tam yayımlanmağa başlanmışdır.

Televiziya 1963-cü ildən müstəqil kanal kimi Muxtar Respublika ərazisində və ondan kənarda yayımlanır.

Naxçıvan şəhərində Dövlət Radio və Televiziya Verilişləri Komitəsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Radio-televiziya Ötürücüsü Mərkəzinin nəzdində isə «Kanal-35» televiziyası fəaliyyət göstərir.

2004-cü il iyulun 14-də yaradılmış «Kanal-35» televiziyası öz verilişlərini səkkiz saat elmi-publisist proqramla Muxtar Respublika ərazisinə yayımlayır.

2001-ci il sentyabr ayının 19-dan fəaliyyətə başlayan «Naxçıvanın səsi» radiosu 100.6 FM dalğasında on altı saat ərzində Muxtar Respublikanın bütün bölgələrində yayımlanır.

«Şərq qapısı» 1921-ci ildən ictimai-siyasi qəzet kimi dərc olunur. Təsisçisi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetidir.

Naxçıvan şəhər İcra Hakimiyyətinin orqanı olan «Nuh yurdu» qəzeti 1996-cı ildən nəşr olunur. Qəzet öz növbəsində Naxçıvan şəhərinin ictimai-siyasi həyatında özünəməxsus rol oynayır.

Naxçıvan şəhərinin ərazisindən keçən avtomobil yolu birinci dərəcəli yol olmaqla uzunluğu 7 kilometrdir. Dəmir yolunun uzunluğu isə 1,6 kilometr olmaqla ikinci dərəcəli yoldur. Beynəlxalq Hava Limanı vardır.

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti 2 iyun 2016-cı ildə "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzalamışdır. Ölkə başçısının imzaladığı bu sərəncam 2018-ci ildə İslam mədəniyyətinin paytaxtına çevriləcək Naxçıvan şəhərində, bütövlükdə Naxçıvan Muxtar Respublikası ərazisində son illərdə geniş meydan verilən milli-mənəvi dəyərlərin, əsrlərdən bəri qorunub yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan İslami dəyərlərin, İslam mədəniyyəti abidələrinin qorunub saxlanması, bərpası, inkişaf etdirilməsi və təbliği sahəsində aparılan işlərin daha yüksək səviyyəyə çatdırılmasında mühüm rol oynayacaqdır.

# Ədəbiyyatı

Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Azərbaycan xalq ədəbiyyatında Naxçıvan motivləri mühüm yer tutur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə, yer və yurd adlarına rast gəlinir. Qorqudşünaslar dastandakı "Basatın Təpəgözü öldürdüyü boy" və "Bəkil oğlu İmran" boylarında cərəyan edən hadisələrin, əsasən, Naxçıvanla bağlı olduğunu göstərmişlər. Naxçıvan süjetləri, toponimləri və qəhrəmanları "Koroğlu", "Əsli-Kərəm", "Qaçaq Nəbi" dastanlarında da mövcuddur. Naxçıvan folklorunda Azərbaycan şifahi xalq ədəbiyyatının bütün janrları təmsil olunmuşdur. Əsasən, bu diyara xas olan janrlar (haxışta, gülümey, yallıbaşı mahnılar) və nümunələr də vardır. Diyarda xalq ədəbiyyatının mühüm qollarından olan aşıq sənəti də (əsasən, Şərur və Şahbuz rayonlanında) inkişaf etmişdir. Hələ qədim zamanlarda bir çox görkəmli şair və yazıçılar, o cümlədən Qətran Təbrizi bir müddət Naxçıvanda yaşayıb yaratmışdır. Atabəy Məhəmməd Cahan Pəhləvanın sarayına yaxın olan, "təbiblər sultanı" kimi şöhrət qazanmış Kəmaləddin Naxçıvani şair kimi də məşhur idi. Əbubəkr ibn Xosrovun Atabəylər sarayında xidməti dövründə yazdığı məşhur "Munisnamə2 əsəri mühüm sosial-əxlaqi motivləri və humanizmi ilə seçilir. Orta əsrlərdə Əhməd ən-Nəşəvi, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Sadiq bəy Ordubadi, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və b. alim və mütəfəkkirlər həm də bədii əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişlər.

XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının geniş yayılması bu bölgədə də ədəbiyyat və mədəniyyətin sürətli inkişafına təkan vermişdir. Bu dövrdə Naxçıvan ədəbi mühitində ciddi canlanma nəzərə çarpır. Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisi (1838) klassik ədəbi ənənələrlə yanaşı, yeni maarifçi-realist ədəbiyyatın da inkişafına müəyyən təsir göstər-

mişdir. Məclisin fəal üzvlərindən Qüdsi Vənəndi, Fəqir Ordubadi, Əhmədağa Şəmi, Usta Zeynal Nəqqaş, Molla Hüseyn Bikəs, Abbas Dəhri, Məşədi Həsən Dabbağ və başqalarının yaradıcılığ-ında klassik məhəbbət lirikasının ənənəvi mövzuları ilə yanaşı, maarifçilik ideyaları, tənqidi-realist-satirik meyillər, dövrandan şikayət, haqsızlığa etiraz motivləri də əhəmiyyətli yer tutur. Azərbaycan maarifçi-realist ədəbiyyatında M.T.Sidqinin (1854-1903) ədəbi-pedaqoji irsinin özünəməxsus yeri vardır. Onun "Nümuneyi-əxlaq" və "Töhfeyi-bənat, yaxud qızlara hədiyyə" dərsliklərinə daxil edilmiş şeir və nəsr nümunələri, "Kəblə Nəsir", "Heykəli-insanə bir nəzər" əsərləri, "Məktəb hekayələri" Azərbaycan maarifçilik ədəbiyyatının kamil nümunələrindəndir.

XIX əsrin 80-ci illərindən Naxçıvan ədəbi-mədəni mühitinə görkəmli yazıçı-publisist və teatr xadimi E.Sultanov (1866-1935) başçılıq edirdi. Onun təşəbbüsü və rəhbərliyi ilə yaradılmış "Ziyalı məclisi", "Müsəlman şiə dram incəsənəti cəmiyyəti"



Naxçıvanın qabaqcıl ədəbi-mədəni qüvvələrinin təşkilatlanmasın-da, maarif və mədəniyyətin, mətbuatın inkişafında, xüsusilə Naxçıvan teatrının yaranmasında və təşəkkülündə mühüm rol oynamışdır. Həmin cəmiyyətlərin ətrafında toplaşmış C.Məm-mədquluzadə, Ə.Xəlilov, M.Ə.Süleymanov, S.Xəlilov, N.Şeyxov,

Ə.Sultanov, M.C.Şürubi və b. təhsilli maarifçi ziyalılar bu sahədə mühüm xidmətlər göstərmişlər.

XX əsrdə Naxçıvan diyarı Azərbaycan ictimai, ədəbi-bədii fikrinə və mədəniyyətinə bir sıra böyük şəxsiyyətlər bəxş etmişdir. Dahi yazıçı, dramaturq və publisist, "Molla Nəsrəddin" jurnalının yaradıcısı C.Məmmədquluzadə (1869-1932) hekayələri, felyetonları, "Danabaş kəndinin əhvalatları" povesti, ölməz "Ölülər" komediyası, "Anamın kitabı", "Dəli yığıncağı" və s. pyesləri ilə realist-demokratik Azərbaycan ədəbiyyatı tarixində müstəsna yer tutur. Ədib "Çay dəstgahı", "Kişmiş oyunu", "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu" əsərlərini Naxçıvanda yaşadığı illərdə yazmışdır.

Böyük romançı M.S.Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuş və onun kamil nümunələrini (dördcildlik "Dumanlı Təbriz" epopeyası, "Qılınc və qələm" və s.) yaratmışdır. "Dumanlı Təbriz"dəki süjetlərin əksəriyyəti ədibin həyatının Naxçıvan dövrü ilə bağlı müşahidələrinin məhsuludur. "Qılınc və qələm"də də Naxçıvanla bağlı motivlər də var. Şair və jurnalist Ə.Qəmküsarın ədəbi irsi ədəbiyyat tariximizdə layiqli yer tutur. Milli romantik şeir və dramaturgiyamızın korifeyi Hüseyn Cavidin humanist lirikası, "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və s. mənzum və mənsur dramları, "Azər" mənzum dastanı Azərbaycan ədəbiyyatının şah əsərləri sırasına daxil olmuşdur.

XX əsrin 20-ci illərində ədəbiyyata yeni gənc qüvvələr gəldi. "Qızıl qələmlər" cəmiyyətinin Naxçıvan şöbəsində birləşən gənc yazarların ilk qələm təcrübələri "Şərq qapısı" qəzetində müntəzəm dərc olunurdu. Xalq yazıçıları M.İbrahimov və Ə.Vəliyevin ayrı-ayrı vaxtlarda Naxçıvanda yaşayıb yaratmaları da burada ədəbi-mədəni prosesin, o cümlədən teatrın inkişafına müsbət təsir göstərmişdir. Eyni zamanda, Naxçıvan mühiti ilə bağlı hadisələr hər iki yazıçıya zəngin yaradıcılıq materialı vermişdir. M.İbrahimov "Həyat" pyesinin mövzusunu Naxçıvan

həyatından götürmüş, Ə.Vəliyev "Budağın xatirələri" romanında Naxçıvan təəssüratlarından istifadə etmişdir.

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri - şair və dramaturq İ.Səfərli, xalq şairi Məmməd Araz, şair Rüstəm Behrudi də Naxçıvan torpağının yetirmələridir.

Hazırda Azərbaycan yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb yaratmaqdadır. Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan şöbəsinin (hazırda Naxçıvan Yazıçılar Birliyi) yaradılması, "Şərq qapısı" vilayət qəzetinin nəşri, yerli radio verilişləri XX əsrin 50-ci illərindən etibarən Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir.

Naxçıvan ədəbi mühitində şeir həmişə üstünlüyə malik olsa da nəsr sahəsində də diqqətəlayiq uğurlar qazanılmışdır. Xalq yazıçısı Hüseyn İbrahimovun "Əsrin onda biri", "Böhtan", "Sabahın sorağında", "Bahar yağışı" romanları, povestləri müasir Azərbaycan nəsrinin nailiyyətlərindəndir.

Bu gün Naxçıvanda dramaturgiya ənənələri də müvəffəqiyyətlə davam etdirilir. Eyni zamanda publisistika sahəsində də uğurlu addımlar atılır. Naxçıvanın yerli dramaturq və publisistlərinin qələm nümunələri Azərbaycan ədəbi mühitində özünəməxsus yer tutur. Naxçıvan torpağı Azərbaycan ədəbiyyatşünaslıq elminə M.Şahtaxtlı, Məmməd Cəfər, Əziz Şərif, Əli Sultanlı, M.H.Təhmasib, A.Zamanov kimi görkəmli alimlər bəxş etmişdir. Tanınmış ədəbiyyatşünaslar Y.Seyidov, M.Sadıqlı, F.Hüseynov, Ə.Səfərli və b. bu torpağın yetirmələridir. 50-ci illərdən başlayaraq ədəbiyyatşünaslıq bilavasitə Naxçıvanda da inkişaf etmişdir. Qocaman maarif xadimi və ədəbiyyatşünas Lətif Hüseynzadə Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Naxçıvanda Ə.Qəmküsar haqqında dissertasiya müdafiə etmiş (1950), Qaraqoyunlu hökmdar-şairi Cahanşah Həqiqinin divanını tapıb nəşr etdirmiş, habelə ədəbiyyatımızın bir çox digər klassiklərinin yaradıcılığını araşdırmışdır.

Son 30 ildə Naxçıvanda tənqidçi və ədəbiyyatşünaslar nəsli yetişmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İ. Həbibbəylinin, filologiya elmləri doktorları Y. Axundlunun, Ə. İsmayılovun Azərbaycan ədəbiyyatının böyük klassikləri C.Məmmədquluzadə, M.S. Ordubadi, H.Cavid haqqında monoqrafik tədqiqatları ədəbiyyatşünaslığımıza dəyərli töhfədir. Mərhum ədəbiyyatşünas İ.Maqsudov görkəmli yazıçı və publisist Eynəli Sultanovun həyat və yaradıcılığını tədqiq etmişdir. Hazırda alimlər Naxçıvan ədəbi mühitinin tarixinə, çağdaş ədəbi prosesə dair uğurlu tədqiqatlar aparmaqdadırlar.

## Sənətkarlıq

Qədim xalq sənəti sahələri olan dulusçuluq, metalişləmə, misgərlik, daşişləmə, ağacişləmə, toxuculuq, zərgərlik və s. Eneolit və İlk Tunc dövrlərindən məlumdur. Naxçıvanda əkinçiliyin, maldarlığın intensiv inkişafı sənətkarlığın təkamülünə imkan yaratmışdır.



Mədəni tələbatın artması bəzək əşyalarının düzəldilməsi, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Arxeoloji qazıntılar nəticəsində qədim yaşayış yerlərindən (I və II Kültəpə, Sədərək, Maxta, Ovçular təpəsi, Daşarx, Qızılburun,

Şahtaxtı, Qarabağlar, Külüs, Kolanı və s.) müxtəlif əmək alətləri və zəngin sənətkarlıq nümunələri, bəzək və məişət əşyaları aşkara çıxarılmışdır. Araz çayının sol sahilində yaşamış qədim tayfaların



sosial həyat tərzi, dini-ideoloji dünyagörüşləri, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır. Naxçıvanın Tunc dövrü mədəniyyəti üçün səciyyəvi sayılan yüksək ustalıqla hazırlanmış bədii tərtibatlı boyalı gil qablar (bu dövrdə Naxçıvanda bir sıra xüsusiyyətləri ilə fərqlənən Boyalı qablar mədəniyyəti təşəkkül tapmışdır), rəngarəng motivli bəzəklər, həmçinin tunc və gümüşdən nəfis zərgərlik məmulatı, qızıl bəzək əşyaları, müxtəlif minerallardan hazırlanmış muncuqlar, metal, ağac, sümük, gil və daşdan zərif sənətkarlıq əsərləri, gil və daş heykəlciklər buna parlaq sübutdur. Qədim sənətkarlığın mühüm sahəsi olan dulusçuluq Naxçıvan ərazisində e.ə. IV minillikdə yaranmışdır. Arxeoloji materiallar göstərir ki, Eneolit və Tunc dövrlərinə aid gil qablar dulus çarxında hazırlanmış və xüsusi kürələrdə bişirilmişdir. Dulus kürələrinin ən qədim qalıqları I Kültəpə yaşayış yerində aşkar olunmuşdur. Tunc dövrünə aid II Kültəpə yaşayış yerindən əl ilə, qismən də dulus çarxında hazırlanmış müxtəlif formalı sadə, həndəsi və nəbati naxışlar, insan, quş və heyvan təsvirləri ilə bəzədilmiş boyalı qab-qacaq (küp, küpə, kasa, badya, çölmək, vaza, çıraq və s.) məlumdur. Yüksək

keyfiyyəti, rəngarəngliyi və çeşidli formaları ilə seçilən dulus qablarının bəzədilməsi, şüyrələnməsi, şirələnməsi və s. xalq sənətinin mühüm sahələridir. Naxçıvan dünyanın ilk qədim metal (mis) işləmə ocaqlarından biridir. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mis-mərgmüş, nikel-mərgmüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilmişdir. Ordubad rayonunun Plovdağ nekropolundan çoxlu tunc sancaqlar, Kültəpədən Tunc dövrünə aid başı ilgəkli dörd sancaq, bıçaq parçası və s. tapılmışdır. Arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək aləti və bəzək hazırlamaq məharətinə malik olduqlarını göstərir. Toxuculuq peşəsinə aid daşdan, sümükdən və gildən iy başlıqlarına, həmçinin çox zərif parça qalıqlarına rast gəlinmişdir. Orta əsrlərdə misgərlik, zərgərlik, ipəkçilik, xalçaçılıq kimi sənətlər xüsusilə vüsət almış, yüksək sənətkarlıq və zövq ilə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları şöhrət qazanmışdır. Bu sənətkarlıq məhsulları xarici bazarlara da ixrac edilirdi. Bədii metal ustası Osman ibn Salman Naxçıvaninin oyma naxışlarla bəzədilmiş bürünc dolçası (1190) Luvr (Fransa) muzeyində saxlanılır.



Erkən orta əsrlərdən başlayaraq istehsal texnikası təkmilləşmiş, ipək istehsalında ayaqla hərəkətə gətirilən təkərli mancanaqlar (baramaaçan dəzgahlar), ipək karxanalarında mütəhərrik toxucu dəzgahları tətbiq olunmuşdur. Ordubad ipək parça istehsal edən əsas mərkəzlərdən biri idi. Azərbaycan ipəyi İraq, Kiçik Asiya, Suriya və Avropanın bir sıra ölkəsinə ixrac olunurdu. Culfa, Ordubad və Naxçıvanda bez istehsalı (bəzzazlıq) sənəti geniş yayılmışdı. Orta əsrlərdə xalçaçılıq sənəti də inkişaf

etmiş, sonrakı dövrlərdə Naxçıvan əhalisinin məişət və iqtisadiyyatında mühüm yer tutmuşdur. Xalçaçılıq ənənələri bu-gün də davam etdirilir.

Naxçıvanın zəngin təbiəti ta qədimdən bu torpaqlarda qoyunçuluq təsərrüfatı ilə məşğul olmağa şərait yaratmışdır. Yerli əhalinin həyatında əhəmiyyətli rol oynayan qoyun gözəl yunu ilə el sənətinin ən zəngin növlərindən olan xalçaçılığın yaranmasında və inkişafında mühüm rol oynamışdır.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da xalçalar öz bədii xüsusiyyətlərinə görə iki böyük qrupa bölünür: ornamental və süjetli xalçalar. Ornamental xalçalar çoxluq təşkil edir.

Dağlıq rayonlarda zili və şəddə toxunuşlu at, dəvə çulu, məfrəş, xurcun, heybə, duzqabı, qaşıqdan kimi məişət əşyaları çox istifadə olunmuşdur.

Naxçıvanda kilimlər məişətdə çox geniş istifadə olunmuşdur.



Naxçıvan kilimləri istər rənginə, istərsə də bədii xüsusiyyətinə görə Qarabağ kilimlərinə çox oxşasa da, bəzi özünəməxsus-luqları ilə fərqlənirlər.

Mürəkkəb dolama texnikası ilə toxunan Naxçıvan zililəri şəddə və vərniyə nisbətən daha çox təkmilləşmişdir.

Keçəçilik Şahbuz və Şərurun kəndlərində tarixən inkişaf etmiş sənət sahələrindən biri olmuşdur.

Yayda sərinlik yaradan, qışda soyuqdan qoruyan keçədən alaçıqların və dəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış evlərinin döşənməsində, bəzədilməsində, yapıncı, papaq, dolaq, uzunboğaz çəkmə, corab, əba, qapılıq, heybə, çul, çuval, yük heyvanı üçün tərlik, palan, yəhər örtüyü, yük keçəsi hazırlanmasında və digər məişət ehtiyacları üçün geniş istifadə edilmişdir. Naxçıvanda xovlu xalçalara nisbətən xovsuz xalçalar daha çox toxunmuşdur.

Xovsuz xalçalar xalça sənətinin ilk inkişaf dövrünü təşkil edir. Bu xalçaların kompozisiyası müxtəlif formalı naxış elementlərindən qurulmuşdur. Bu xalçalarda təsvir edilən bəzək elementlərinə arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif dövrlərə aid saxsı qabların, daş və metal alətlərin, müxtəlif bəzək əşyalarının üzərində də təsadüf edilir. Naxçıvan xalçalarının bədii tərtibatında geniş yayılmış çərxi-fələk (dörd ünsür) təsvirinə e.ə. II-I minilliklərə aid maddi-mədəniyyət abidələri üzərində də təsadüf edilir. Çərxi-fələk adətən iri ölçülü medalyonların mərkəzində təsvir olunur. "Çələbi" kompozisiyalı Naxçıvan xalçalarında da bu elementə rast gəlinir. Naxçıvan xalçaları rəng baxımından digər bölgələrin xalçalarından xeyli fərqlidir. Açıq və tünd rənglərin təzadı Naxçıvan xalçalarına xüsusi ahəngdarlıq bəxş edir. Naxçıvanda hələ qədim zamanlardan boyaqxanalar fəaliyyət göstərmişdir. Xalçaçı ustalar ayrı-ayrı bitkilərdən, gül-çiçəkdən, ağac qabıqlarından ipləri boyamaq üçün müxtəlif rənglər alırdılar. Məsələn, sarı və sarımtıl rənglər sarıçöp, sarıgül və əncir yarpaqlarından; qırmızı və çəhrayı rənglər boyaqotundan (marena), qırmız böcəyindən (koşenil); noxudu və şəkəri rənglər soğan və alma qabığından, palıd rəngi qoz qabığından; sürməyi və göy rənglər xaricdən gətirilən təbii indiqodan alınırdı. Peşəkar boyaqçılar təbii rənglərin imkanlarını artırmaq məqsədi ilə onların tərkibinə zəy, duz, mal sidiyi kimi bərkidici maddələr əlavə edirdilər.

Naxçıvanın orijinal naxış kompozisiyasına malik xalça və xalça məmulatları Azərbaycanda və dünyanın bir sıra digər

ölkələrinin muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Şəxsi kolleksiyalarda Naxçıvan şəhərindən 5, Babək rayonundan 5, Culfadan 5, Kəngərlidən 3, Ordubaddan 6, Sədərəkdən 4, Şahbuzdan 6, Şərurdan 10 xovlu və xovsuz xalça məmulatları saxlanılır. Apardığımız araşdırmalar nəticəsində MR-ın 7 rayonunun 68 kəndindən 254 toxucu haqqında məlumatlar əldə edilmişdir. Buraya Şahbuzdan 31, Şərurdan 58, Babəkdən 49, Sədərəkdən 8, Culfadan 37, Kəngərlidən 35, Ordubaddan 36 toxucu daxildir. Bu gün Naxçıvanda, onun rayon və kəndlərində xalça sexləri fəaliyyət göstərir. Xalçaçılığın inkişafı məqsədi ilə tədris ocaqları yaradılıb. Yeni bina ilə təmin olunmuş Naxçıvan Dövlət Xalça muzeyi isə zəngin eksponatları ilə qonaqların ixtiyarına verilib. Burada Naxçıvan qrupuna aid çoxlu sayda əntiq xovlu və xovsuz xalça məmulatları saxlanılır.

## Memarlıq

Naxçıvan diyarı qədim zamanlardan bəri nadir memarlıq nümunələri ilə Yaxın Şərqdə tanınmışdır. III minilliyin sonu - II minilliyin əvvəllərinə aid yaşayış məskənlərindən Naxçıvanın qədim memarlığına aid çiy kərpic və möhrədən inşa edilmiş bina qalıqları, Naxçıvan ərazisində möhtəşəm qala divarları, düzbucaqlı və yarımdairəvi bürclərlə əhatə olunmuş erkən şəhər yerləri (I və II Kültəpə, Govurqala, Qarabağlar, Oğlanqala, Plovtəpə, Qazançı, Vayxır, Çalxanqala və s.) meydana gəlmişdir. Bu abidələr Azərbaycanın, eyni zamanda, Naxçıvanın Yaxın Şərqin yüksək inkişaf tapmış mədəniyyət mərkəzləri ilə əlaqələrini aşkara çıxarmışdır. Naxçıvanın ayrı-ayrı tarixi dövrlərə aid yaşayış məskənləri, siklop tikililəri, maddi mədəniyyət və memarlıq



abidələri, qalaları, istehkamları, inşaat materialları, tikinti texnikası və s. öz zənginliyi ilə diqqəti cəlb edir.

Naxçıvan XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı olaraq əzəmətli bir şəhər, Azərbaycanın siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri idi. Burada memarlıq sənəti yüksək səviyyəyə çatmışdı; çoxsaylı dini memarlıq abidələri və mülki binalar: zəngin ornamentlər və boyalarla bəzədilmiş əzəmətli məscidlər, türbələr, saraylar, karvansaralar, körpülər, qala və bürclər, mədrəsələr, bəzəkli yaşayış evləri, zəngin tərtibatlı hamamlar və s. inşa edilmişdi. Azərbaycanda orta əsr xatirə memarlığının ən geniş yayılmış tipi olan qülləvarı türbələrin yaradılmasında naxçıvanlı memarlar Əcəmi Əbubəkr oğlu və Əhməd Əyyub oğlunun böyük xidmətləri olmuşdur. Memar Əcəminin XII əsrin II yarısında Naxçıvanda ucaltdığı və dövrümüzədək salamat qalmış Yusif ibn Küseyir türbəsi və Möminə Xatun türbəsi dünya memarlığında insan xatirəsini monumental biçimlərlə əbədiləşdirən ən uğurlu örnəklərdəndir. Təkcə Azərbaycanın deyil, islam ölkələrinin ən uca və ən incə kompozisiyalı türbələrindən olan Möminə Xatun türbəsinin belə uzunömürlülüyü, öncə, onun mühəndis həllinin bitkinliyi ilə bağlıdır. Memar Əcəmi öz şah əsərində təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin təcrübəyə əsaslanan mühəndislik dühası göstərmişdir. Abidənin mükəmməl dayaq sistemi, xüsusilə sərdabəsinin tektonik quruluşu naxçıvanlı memarın öz çağında nə üçün “mühəndislər şeyxi” adlandırılmasının səbəbini əyani şəkildə izah edir. Əcəminin fəaliyyəti ilə Azərbaycan memarlığı tarixində Naxçıvan memarlıq məktəbi əmələ gəlmiş və formalaşmışdır.



Naxçıvan memarlıq məktəbi dəqiq riyazi hesablama metodlarına əsaslanırdı. Abidələr dəqiq hesablanma və ölçmələr,

planlaşma, yerləşmə, ornamentlərin və kitabələrin dəqiq düzülməsi əsasında tikilirdi. Abidələrin modul sistemi, mütənasiblik sxemləri, tağların və günbəzlərin quruluşu, səkkizkünc səthlərin dəqiq ölçüsü riyazi hesablamasız mümkün deyildi. Bu məktəbin təsiri ilə Yaxın Şərq ölkələrində bir sıra memarlıq kompozisiyaları yaradılmışdır. Naxçıvan memarlığı yalnız daş memarlıq abidələri ilə deyil, əsas inşaat materialı qırmızı bişmiş və bənövşəyi rəngli kaşılı kərpiclər olan abidələrlə də məşhurdur (İmamzadə memarlıq kompleksi və s.). Monqol istilaları nəticəsində əvvəlki əzəmətini itirmiş, Elxani hökmdarları dövründə digər Azərbaycan şəhərləri kimi dirçəlmiş, XIV əsrin II yarısında Çobani və Cəlairi əmirləri arasındakı dağıdıcı müharibələrdən zərər çəkmiş, Qızıl Orda xanı Toxtamışın və Əmir Teymurun yürüşləri zamanı qətl-qarətlə üzləşmiş, XVI əsrdə dəfələrlə əldən ələ keçmiş, XVII əsrin I yarısında iki dəfə dağıntılara məruz qalmış Naxçıvan əski əzəmətini, Azərbaycanın siyasi-iqtisadi, mədəni həyatındakı aparıcı rolunu və mövqeyini itirmişdir. Hərbi-siyasi hadisələr Culfa, Ordubad, Əylis kimi mədəni mərkəzlərə də xeyli zərər yetirmişdi. Görkəmli memarların yaratdıqları yüzlərcə qiymətli tikinti və abidə ara müharibələri zamanı dağılmış, dövrümüzə qədər gəlib çatmamışdır. Çox zaman bunları yaradan sənətkarların və xalq ustalarının adı belə məlum olmamışdır.



XVII əsrin II yarısından başlayaraq Naxçıvanın, Ordubadın, Culfanın şəhər həyatında müəyyən canlanma hiss olunmuşdur. Türk tarixçisi Övliya Çələbinin məlumatına görə, XVII əsrdə Naxçıvanda 20 min ev, 70 dini bina, 20 karvansara, 7 hamam və bazarlar mövcud idi. İmamzadə memarlıq kompleksi (XVI-XVII əsrlər), İsmayıl xan hamamı (XVIII-XIX əsrlər), Xan evi (XIX

əsr), Ordubadda məscid və mədrəsələr, zorxana, hamam və karvansaralar tikilmiş, Ərasət meydanı ansamblı, örtülü bazar kompleksi salınmış, Dər, Dəstə, Əylis, Dırnıs, Gənzə, Vənənd kəndlərində türbə və məscidlər, digər memarlıq abidələri, tarixi binalar inşa edilmişdir. Ordubadda divarları gözəl rəsmlərlə bəzədilmiş XVIII əsrə aid memarlıq abidələri dövrümüzədək gəlib çatmışdır.

Əfsuslar olsun ki, daim ideologiya xatirinə tarixi saxtalaşdırmağa cəhd edən erməni "tədqiqatçıları" Sovet dövrünün siyasi və ideoloji atmosferindən məharətlə istifadə etmiş, mənfur "Böyük Ermənistan" planının tərkib hissəsi kimi "elmi" şantaj aksiyaları həyata keçirərək Naxçıvan torpaqlarına qarşı ərazi iddiaları irəli sürmüş və bu gün də bu iddiaları təbliğ etməkdədirlər. Belə ki, elmə və elmi metodologiyaya zidd olaraq qədim Azərbaycan abidələrinin yerləşdiyi Naxçıvan ərazisində saxta yollarla qəbir daşları basdırmış, sonradan bu "tapıntılar" ətrafında hay-küy qaldıraraq iddialarına dəlil göstərməyə çalışmışlar. Buradakı müxtəlif dövrlərə aid tarixi abidələrin fotolarını çəkdirmiş, onları sahiblənərək nəşr etdirdikləri uydurma məlumatlarla dolu məqalələr və albom xarakterli kitablarla dünya ictimaiyyətini yanıltmaqla məşğul olmuşlar. Lakin siyasiləşmiş erməni "tədqiqatçıları" Naxçıvandakı Azərbaycan abidələrinin maddi-mənəvi məhvində müvəffəq ola bilməmiş, onların uydurma iddiaları həqiqi alimlər tərəfindən tamamən çürüdülmüşdür.



Bu gün Naxçıvan Muxtar Respublikasında xalqın milli və mənəvi sərvətlərinin, böyük tarixi dəyərə malik abidələrin tədqiqi, mühafizəsi və bərpası sahəsində bir sıra mühüm dövlət

qərarları qəbul edilmiş, onların qorunub saxlanılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili", "Nuh peyğəmbərin Naxçıvan şəhərində məzarüstü abidəsinin bərpa edilməsi" haqqında, Ordubad "Gəmiqaya Tarix-Bədii Qoruğu" və Şərur "Arpaçay Tarix-Mədəniyyət Qoruğu"nun yaradılması haqqında müvafiq Sərəncamları tarixi abidələrimizin öyrənilməsinə mühüm töhfələr vermişdir.

2010-cu ildə Naxçıvan Muxtar Respublikasında 1197 tarixi-mədəniyyət abidəsi qeydə alınmışdır. Bu abidələrdən 550-yə yaxını dünya və ölkə əhəmiyyətli, digərləri isə yerli əhəmiyyətlidir. Qeydə alınmış abidələrin əsasında "Naxçıvan Abidələri" Ensiklopediyası hazırlanmışdır. Bu ensiklopediya qədim abidələrimizin öyrənilməsi və beynəlxalq miqyasda tanıdılması üçün mühüm mənbədir.



2013-cü ildə Culfa rayonunun Əbrəqunus kəndində məscidin tikintisi, Teyvaz kəndində məscidin əsaslı təmiri, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin təmiri başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin inzibati binası və sərgi salonunun tikintisi başa çatdırılmışdır.

Muxtar respublikada tarixi-mədəni irsin qorunması və təbliği, mədəni potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və bərpası davamlı xarakter almışdır. 2013-cü ildə mədəniyyət obyektlərinin inşası və bərpası istiqamətində Naxçıvan şəhərində Saat Meydanı və parkın, Culfa rayonunda Dövlət Bayrağı Meydanının tikintisi, Kəngərli rayonunun Qıvraq qəsəbəsində Heydər Əliyev Mədəniyyət və İstirahət

Parkının təmiri başa çatdırılmışdır. Babək rayonunun Babək qəsəbəsində 1941-1945-ci illər müharibəsi və Azərbaycan Vətən müharibəsi şəhidlərinin xatirəsinə abidə ucaldılmışdır.

## Tarixi abidələr

Naxçıvan Muxtar Respublikasında 1162 tarixi-mədəniyyət abidəsi mövcuddur. Bu abidələrin 58-i dünya, 455-i ölkə, 649-u isə yerli əhəmiyyətlidir. Tarixi-mədəniyyət abidələrinə aşağıdakılar daxildir:
Arxeoloji abidələr - 663
Memarlıq abidələri - 285
Monumental sənət abidələri- 31
Tarixi abidələr – 36
Ziyarətgahlar - 140
Təbiət abidələri – 7

***Ağoğlan türbəsi-*** Sədərək rayonunun Sədərək kəndinin şimalında ziyarətgahdır. Yerli əhalinin məlumatına görə, Seyid Pərinin qəbri üzərində tikilmişdir. Seyid Pəri və onun oğlu Ağoğlanla bağlı xalq arasında əfsanə vardır. Əfsanəyə görə, Ağoğlan bədniyyətli dərvişi öldürərək əhalinin firavan yaşayışını



və rahatlığını təmin etmişdir. Bu ərazi xalq tərəfindən müqəddəs sayılaraq ziyarət edilir. Qəbirüstü abidə günbəzlə tamamlanan çoxüzlü prizma formasındadır. Türbənin girişi cənubdandır. Üzlərində tağşəkilli pəncərələri var. Ziyarətçilər dilək tutaraq şam yandırıb türbənin divarlarında oyuqlara qoyurlar. Türbənin ətrafındakı bulağın da suyu müqəddəs və şəfaverici hesab edilir.

***Aza körpüsü-*** Ordubad rayonunun, Aza kəndində, Gilançayın üzərində memarlıq abidəsidir. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3,5 m, uzunluğu 46 paqonometrdir. Beş aşırımlıdır. Qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış, tağlar arasındakı məsafə müxtəlif ölçülərdə qoyulmuşdur. Tağların dördündə dalğakəsən vardır. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən Aza körpüsü Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa etdirilmişdir. Buradan keçən ticarət karvanları ilə yerli məhsullar, o cümlədən quru meyvələr, sənətkarlıq məhsulları, ipək ixrac olunurdu. Baş verən təbii fəlakətlər və bəzi tarixi hadisələr nəticəsində dəfələrlə dağılmış, sonralar təmir edilmişdir. Güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdığından 1997-ci ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur. Hazırda Naxçıvandan və Ordubaddan Azadkəndə gedən əhali və nəqliyyat vasitələri bu körpüdən istifadə edir. Körpü XVII əsrə aiddir.



***Came məscidi-*** Naxçıvan şəhərində memarlıq abidəsidir. Memarlıq konstruktiv quruluşuna görə məscid XVIII əsrə aid edilir. Giriş qapısının baş tərəfində kitabə qoyulmuşdur. Əvvəli dini mətndən ibarət olan gözəl nəstəliq xətti ilə ərəb və fars dillərində mərmər lövhə (87x57 sm) üzərində həkk edilmiş kitabədə deyilir ki, bu Cəfəriyyə məscidi 1311-ci ildə (1894) naxçıvanlı mərhum Hacı Novruzun oğlu Xeyrül-Hac Məhəmməd Cəfər ağanın səyi ilə bərpa edilmişdir. Həmçinin, kitabədə Hacı Məhəmməd Cəfər ağanın məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında 2 dükan ayırdığı da qeyd

olunmuşdur. "Çay yuxarısında" - deyərkən vaxtilə şimal-şərqdən axaraq, cənub-qərbdə Araza qovuşan və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur. Bu çay 20-ci yüzilliyin 60-cı illərinədək Naxçıvan şəhərinin içərisindən axırdı. 60-cı illərdə çayın üstü beton plitələrlə örtüldü və görünməz oldu.



Kitabədə məscidin memarı özünü "əgər məndən sonra məscidin memarını axtarsalar, səkkizinci imamdan sonrakı adla adlanıram"- deyə təqdim etmişdir. Məlumdur ki, şiələrin səkkizinci imamı Rza, doqquzuncu imamı isə Məhəmməd Təqidir. Deməli məscidin memarının adı Məhəmməd Təqi imiş. Kitabə vasitəsilə başqa mənbələrdən məlum olmayan iki görkəmli sənətkarın adı elmi dövriyyəyə daxil edilmişdir. Onlardan biri məscidin memarı Məhəmməd Təqi (həmçinin, o, kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır), ikincisi isə kitabəni həkk edən Məhəmməd Salehdir. Məscidin ümumi sahəsi təqribən 1000 m2-dir. Bir minarəlidir. 1918-ci ildə ermənilər Naxçıvanda yerli əhaliyə qarşı soyqırım tətbiq edərkən top atəşi ilə minarəni zədələmişlər. Sonralar minarə bərpa olunmuşdur. Sovet hakimiyyəti illərində Naxçıvan şəhərində, ümumiyyətlə muxtar respublikada fəaliyyət göstərən yeganə məscid olmuşdur. 2007-ci ildə məsciddə əsaslı bərpa işləri aparılmışdır.

***Culfa (Gülüstan) karvansarası-*** Memarlıq abidəsi olan Culfa karvansarası Culfa rayonunun Gülüstan kəndində, Araz çayının sol sahilindədir. Culfa (Gülüstan) karvansarasının qalıqları 1974-cü ildə çöl-tədqiqat işləri zamanı aşkar edilmiş, 1978-ci ildə binanın planı tam üzə çıxarılmışdır. Bakı-Culfa dəmiryolu xətti çəkilərkən (1939-1940) karvansaranın təqribən yarısı dağılmışdır. Tədqiqatlar nəticəsində Culfa karvansarasının Azərbaycanda yol karvansaraları içərisində ən görkəmli və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir. Ümumi uzunluğu 37 m olan Culfa karvansarasının eyni tipi Araz çayının sağ sahilində, demək olar

ki, bütünlüklə salamat qalmışdır. Karvansaraların hər iki sahildə üzbəüz yerləşməsi hələ Araz çayı üzərində körpü tikilməzdən əvvəl burada çay bərəsinin işlədiyini göstərir və karvansaraların tikilmə dövrünü XIII əsrin əvvəllərinə aparıb çıxarır. Karvansaralar çaydaşıdan tikilmiş və gəc məhlulu ilə suvanmışdır. Culfa karvansarasının aşkar olunmuş hissəsində çoxlu yaşayış otaqları vardır. Bəzi otaqların örtük hissəsi maraqlı



konstruksiyaya malikdir. Binanın şimal tərəfində sağ və solda tağ formasında dərin divar oyuqları olan böyük zal mövcuddur. Bu zal haqqında qəti fikir söyləmək çətindir. Lakin belə plan quruluşuna malik köhnə məscidlər də məlumdur.

***Darkənd günbəzi***- Ordubad rayonunun Darkənd kəndində yerləşir. Günbəz kompozisiyası və dekorativ elementləri ilə fərqlənir. Darkənd türbəsi kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr biçimində olub, yuxarı hissədən günbəzlə



tamamlanır. Abidənin dörd tərəfində yerləşən portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərindəki tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Üzərində kitabə olmadığından türbənin tarixini dürüst müəyyənləşdirmək mümkün deyildir. Lakin kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra tikildiyi mülahizəsini irəli sürməyə imkan verir. Bu mülahizəyə əsasən Darkənd türbəsinin XIV əsrin axırlarında və ya XV əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur.

***Dırnıs məscidi***- Ordubad rayonunun Dırnıs kəndinin Yuxarı məhəlləsində, Mirzə küçəsində tarix-memarlıq abidəsidir. Kənd-

də həcminə görə ən iri məscid olduğundan el arasında Böyük məscid adlanır. Came məscididir. Girişi qərbdəndir. Qadınlar üçün giriş şərq tərəfdəndir. Tavan 5x2=10 dirəyin üstündə dayanıb. Şərq və şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbə-balkon düzəldilib. Şərq divarda 3, qərb divarda 2, cənub divarında isə 3 böyük pəncərə var. Məscidin dirəklərindən birinin sütun başlığı üzərində qara rənglə yazılan kitabədən aydın olur ki, məscid hicri 1339-cu ildə (1920-1921) təmir olunmuş, təmir işlərini Ordubadlı usta Həsən həyata keçirmişdir. 1999-cu ildə əhalinin vəsaiti ilə yenidən təmir olunmuş, bu zaman məscidin qərbdən giriş qapısının qarşısında balkon düzəldilmiş və minarə hörülmüşdür. Memarlıq-konstruktiv quruluşuna görə XVII əsrə aid edilir.



***Əlincəçay xanəgahı***- Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşən Əlincəçay xanəgahı orta əsrlərə aid memarlıq kompleksidir. El arasında Şeyx Xorasan adlanan kompleksdən zəmanəmizədək türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Kompleksə daxil olan türbənin cənubdan giriş qapısının baş tərəfində qoyulan kitabənin məzmunundan aydın olur ki, türbə əmir, böyük alim Uluq Qutluq Lala bəyin əmri ilə memar Xacə Cəmaləddin tərəfindən inşa edilmişdir. Kitabənin son hissəsi ovulub töküldüyü üçün onun inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq memarlıq konstruktiv quruluşuna görə onu XII-XIII əsrlərə aid etmək olar. Türbənin içərisində bir qəbir vardır. Ancaq qəbrin üstündə kitabə olmadığı üçün orada kimin dəfn edildiyi məlum deyildir. Yerli əhalinin fikrincə, hürufilik təliminin banisi Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə faciəli surətdə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini gətirib burada dəfn etmişlər. Məhz buna görə də Xanəgah kompleksinə yerli əhali arasında verilən ad (Şeyx Xorasan) tədqiqatçılar tərəfindən F.

Nəiminin ləqəblərindən olan Şeyx Xurasa (Günəşə oxşar, Nurani şeyx) və F. Nəiminin təhsil alıb kamilləşdiyi Xorasandan Azərbaycana gəldiyi üçün Xorasanlı şeyx, Xorasan şeyxi kimi izah edilir. Türbənin cənubunda ona bitişik inşa edilmiş türbə-



məscid xanəgahda fəaliyyət göstərən sufi təriqətinin rəhbərlərindən olan Şeyx Hacı Lələ Məliyin xatirəsinə hicri 901-ci (miladi 1495-1496) ildə Xond Bikə xatın tərəfindən inşa edilmişdir. Orta əsrlərdə sufi şeyxləri ailələri ilə birlikdə xanəgahlarda yaşayır, öldükdən sonra xanəgahın yanında dəfn olunurdular. Şeyx Hacı Lələ Məlik də xanəgaha rəhbərlik edərək orada yaşamış, vəfat etdikdən sonra öz xanəgahının yanında dəfn olunmuş və qəbrin üstündə Xond Bikə xatın (ehtimal ki, şeyxin arvadı olmuşdur) türbə-məscid inşa etdirmişdir. Xond Bikə xatın vəfat etdikdən sonra özü də xanəgahın ətrafında dəfn edilmişdir. Ona məxsus sənduqə tipli xatirə abidəsi hazırda Xanəgahın yanında qalmaqdadır. Xanəgahın ətrafında bərpa işləri aparılarkən torpağın altından 1444-1445-ci, 1491-1492-ci, 1493-cü illərə aid məzar kitabələri aşkar olunmuşdur. Xanəgah uzun müddət orada fəaliyyət göstərən dərvişlərin yaşayış, ibadət və zikr yeri olmuşdur. Epiqrafik dəlillərə əsasən aydın olur ki, xanəgah XVIII əsrdə də fəaliyyət göstərmiş və onun üzvləri buradan öz ideyalarını yaymışlar.

***Əshabi Kəhf***- Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi-Kəhf ərəb dilində “mağara sahibləri” deməkdir. Qurani-Kərimdə “əl-Kəhf” surəsinin 9-27-ci ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin (Təmlixa, Bərnuş, Sərnuş, Məksilma, Məslina, Sazənuş, Kəftəntuş (çoban) və onlara sadiq olan itləri Qıtmir) 300 ildən artıq

yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Qurani-Kərimdə mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapmışdır. Uzun illər bir sıra ədəbiyyatda mövcud olmuş yanlış fikrə görə hadisə xristianlıqla əlaqələndirilmiş, Qurani-Kərimdə adı çəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilmişdir. Həmin ədəbiyyatlarda Naxçıvanda olan Əshabi-Kəhf mağarasından və rəvayətdən bəhs olunmamışdır. Lakin son dövrdə aparılmış araşdırmalar sübut edir ki, Qurani-Kərimdə adı çəkilən Əshabi-Kəhf mağarası Naxçıvan ərazisindədir və bunun xristianlıqla heç bir əlaqəsi yoxdur. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. İri həcmli mərmər lövhədən (145x35 sm) ibarət olan kitabənin mərkəzi hissəsində, çərçivələr içərisində Qurani-Kərimin Əshabi-Kəhf hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12, 17-18-ci ayələri həkk edilmişdir. Lövhənin kənarlarında, sağ tərəfdə yuxarıdan başlayaraq sol tərəfdə başadək ensiz, lentvarı haşiyə şəklində yazılan kitabənin məzmunu belədir: "Qar, yağış



təsirindən burada yazılmış xətlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli, adı çəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi Heydərqulu xanın xələfi qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsb etsinlər. Bu əmrə əsasən mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190-cı ilin səfər əl-müzəffər



ayında (22.03-20.04-1776) lövhəni yazıb qurtarmışdır”. Göründüyü kimi əvvəllər bu kitabənin yerində Qurani-Kərimin qeyd olunan ayələri həkk olunmuş ayrı bir kitabə olmuş, ancaq zaman keçdikcə təbii amillərin təsirindən aşındığı üçün həmin vaxt Naxçıvan ölkəsinin hakimi olan Şükrulla xan Kəngərlinin əmri ilə mətn ayrı bir mərmər lövhəyə yazılıb onun yerinə qoyulmuşdur.Ümummilli lider Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılmışdır. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulmuşdur. Kitabədə deyilir: “Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür”. Son illərdə Əshabi-Kəhf ziyarətgahının ərazisində yenidənqurma, bərpa və abadlıq işləri aparılmışdır. Bərpa və abadlıq işləri zamanı Əshabi-Kəhfdə zəvvarlar üçün yaxşı şərait yaradılmış, 13 km məsafədə rahat yol salınmış, yolboyu yaşıllaşdırma işləri aparılmış, məscid tikilmişdir. Hazırda buraya Azərbaycanın başqa bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər və qonaqlar gəlir.

***Fərhad evi***- Şahbuz rayonunun Biçənək kəndindən şərqdə, Batabat yaylağında arxeoloji abidədir. Naxçıvan-Laçın-Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan təqribən 1 km şərqdədir. Liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşirlər. Tavanlar tağşəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır.



Divarların dibində səki düzəldilmişdir; birinci otağın sağ küncündə quyu ocaq yeri var. Giriş qapısının hündürlüyü 2,20 m, eni 1,30 m-dir. Fərhad evinin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi başı, solunda qadın rəsmi həkk

olunmuşdur. Qayanın şimali-şərq yamacında buradan keçən qədim karvan yolunun səviyyəsindən 2 m hündürlükdə uzunluğu 5 m, eni 80 sm, dərinliyi 30 sm olan səki qazılmışdır; səki boyunca 3 sətirlik qədim yazı həkk olunmuşdur Məzmunu oxunmaz vəziyyətə salınmış yazı çox güman ki, mixi yazısıdır. Yaxınlıqdakı kurqan tipli abidə üzərindəki vişap oğurlanmışdır. Naxçıvan şəhərindən Fərhad evinə bir mənzil karvan yolu var. Naxçıvan-Laçın-Yevlax yolu Yaxın Şərqi Cənubi Qafqazla əlaqələndirən ən əlverişli yollardan sayılırdı. Batabat yaylağında Fərhad evi adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansara tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar Fərhad evi abidələrinin e. ə. I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir. Fərhad evi ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır.

***Gəmiqaya-*** Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə dağ, Zəngəzur silsiləsinin suayırıcında zirvə olan Gəmiqayanın hündürlüyü 3725 metrdir. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan əmələ gəlmişdir. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Gəmiqaya yaylaqlarının ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir. Adı Nuh əfsanəsi ilə bağlıdır. Yalçın, şiş qayalı zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Görünür, belə zahiri oxşarlığa əsasən Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq dağına (3904 m) xalq arasında Gəmiqaya adı verilmişdir. Qədim dünyanın müqəddəs panteonlarından sayılan Gəmiqaya özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Burada e. ə.



IV-I minilliklərə aid minə yaxın qayaüstü rəsm - piktoqramlar (qədim yazılar) vardır.

***Gilan türbəsi***- Ordubad rayonunda orta əsrlərə aid memarlıq abidəsidir. 1979-cu ildə Xaraba Gilan şəhəri yerində aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. Gilan türbəsinin sərdabəsi Azərbaycan və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvarı - yuxarıya doğru genişlənən sütuna dayanır. Sütun da planda səkkiz-bucaqlıdır. Buna bənzər mərkəzi dayaq sütunu Azərbaycan ərazi-sində indiyədək yalnız iki abidə-dən-Marağadakı Qırmızı günbəz



(1148) və Naxçıvandakı Möminə Xatun (1186) türbələrinin sərdabələrindən bəllidir. Gilan türbəsi Marağa-Naxçıvan memarlıq məkanında olmasına baxmayaraq, memarlıq quruluşu, konstruksiya baxımından Şərqi Anadolunun (Türkiyə), Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsinin (XII əsrin əvvəlləri) alt qatı ilə, demək olar ki, eynidir. Hər iki sərdabənin həcmi və hündürlüyü də bir-birinə çox yaxındır. Kemahdakı türbənin də Marağa-Naxçıvan memarlıq məktəbi nümayəndəsi tərəfindən tikilməsi ehtimalı güclüdür. Çünki həmin illərdə Menqucuqların əsas tikililərini iki azərbaycanlı memar yerinə yetirirdi. Onlardan birinin - memar Əhməd Əbubəkr oğlu Mərəndinin Sivasda ucaltdığı Keykavus türbəsi görünüşcə Gilan və Kemah türbələrinə bənzərdir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən

bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. İnteryerdə tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bütövlükdə, sərdabə interyerinin ifadəliliyi biçimlərin təmiz həcm quruluşuna əsaslanır, estetik tələblərə uğurla cavab verməklə fəzalı plastik arxitektonikası ilə gözəl təsir bağışlayır. Bayırda sərdabə qatının üstündə kubvarı tutumlu gövdə ucaldılmışdır. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gövdənin künclərini silindrik kərpic sütunlar qapayırmış. Sütunlardan birinin alt bölümü qalmışdır. Bəzək işlərində göy rəngli kaşı lövhələr də işlədilmişdir. Gilan türbəsinin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin XII əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

***Gülüstan türbəsi-*** Orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Gülüstan türbəsi Culfa rayonunun Gülüstan kəndi yaxınlığındadır. Möminə Xatun türbəsinin təsiri ilə XIII əsrin əvvəllərində tikilmiş Gülüstan türbəsi Azərbaycanın qülləvarı türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşıdan, orijinal quruluşlu kürsülüyü (küncləri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilmişdir. Azərbaycanın digər türbələrindən fərqli olaraq, Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə (kürsülüyündə) yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir.



Planda kvadrat (6,6 x 6,6m) olan kəsik piramida xaricdən yuxarıda düzgün onikibucaqlıya çevrilir, onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin üst çadır örtüyü tamamilə

dağılmışdır. Odur ki, bu çadır örtüyünün piramidaya oxşar və ya konik biçimdə olmasını müəyyənləşdirmək çətindir.

Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. Qüllənin üzlərinin hər biri qabarıq tinlərin haçalanması yolu ilə tağlarla tamamlanır. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi burada da taxçaların içi incə həndəsi naxışlarla örtülmüşdür. Onikiüzlü naxışları diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, burada ardıcıllıq yalnız ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşnisindən ibarətdir.

Gövdənin oturacaqla birləşən hissəsi, eləcə də günbəzə keçid yeri stalaktit şəkilli oyma qurşaqla əhatə edilmişdir. Ornamentlərlə digər bəzək elementlərinin üzvi surətdə birləşdirilməsi və əlaqələndirilməsi abidəyə qabarıq və elastik görkəm verir. Gülüstan türbəsinin fəza quruluşu çevrədən kvadrat əsasa, kubik tutumdan konik əsasa və beləliklə, mütənasiblik sistemlərinin bir-birinə keçməyin bədii texniki həllinin parlaq nümunəsidir. Belə türbələrin geniş yayıldığı ərazi Anadolu olduğuna görə Gülüstan türbəsini mərkəzi Azərbaycan və Anadolu Səlcuq türbələrinin soy birliyinin baş göstəricisi hesab etmək olar. Memarlıq formalarının arasında mütənasiblik, biçim və naxışlarının incəliyinə görə Gülüstan türbəsi bu daş türbələrdən üstünlüyü ilə seçilir.

***Hacı Hüseynqulu məscidi-*** Ordubad rayonunun Gənzə kəndində tarixi-memarlıq abidəsidir. Kəndin mərkəzində yerləşir. Ölçüsü 23x14 m-dir. Məscidin üzərində kitabə olmasa da yerli camaatın dediyinə görə onu Hacı Hüseynqulu adlı nüfuzlu bir adam tikdirib. Öldükdən sonra özü də məscidin cənub divarının qarşısında dəfn olunub. Məsciddə olduğu kimi qəbirin üstündə də heç bir epiqrafik sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbirin üstü də götürülmüş, mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, XVI əsr" sözləri həkk edilmişdir. Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. Sonralar, deyilənə görə, XX əsrin əvvəllərində qərb tərəfdən

əlavə bina tikilib kişilərə aid salona birləşdirilib. Məscidin əsas, qədim hissəsi daşdan üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvari birləşdirilib. Divarların qalınlığı 1 m-dir. Məscidin içərisində, divarlarda 5 divariçi-taxça düzəldilib. Girişin önündə eyvan var. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır. Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı cənub-qərb tərəfində gözəl bir minarə ucal-dılıb. Minarənin üstündə belə bir kitabə qoyulub: "Məscidin minarəsi 2000-ci ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilmişdir. Memarları Kərbəlayi Səyid, Kərbəlayi Qurban". Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlikdə və orucluqda burada dini mərasimlər icra olunur. Məscidin cənubunda olan qəbiristanlıq da vaxtı ilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş, onu qəbiristanlıq üçün bağışlamışdır. Orada olan məzar kitabələrinə əsasən demək olar ki, Hacı Hüseynqulu XV əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir.



***Xan Sarayı-*** Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 3600 $m^2$ sahəsi olan saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində 42x8 m ölçüdə yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların

qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib. Xan Sarayının ümumi sahəsi 382 $m^2$, divarlarının qalınlığı 60 sm-dən 1,1 m arasında dəyişir. Bina 20x20x5 sm ölçüdə bişmiş kərpiclə tikilmişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur. 1-ci mərtəbədə 3 otaq, 2-ci mərtəbədə 8 otaq (2 zal) və otaq kimi istifadə olunan vestibüllərin üzərində 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestibüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində döşəmədən 40 sm hündürlükdə səhnə tipli taxt yaradılmışdır. Taxtlı guşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə nəfis bəzədilmişdir. Zalın digər divarları taxçalar, nəbati və süjetli rəsmlərlə işlənmişdir. Sonralar aparılan çoxsaylı təmir və bərpa işləri zamanı rəsmlər pozulmuş və ya üzəriləri suvaqla örtülmüşdür. Zalın əzəmətini cənub divardakı, ətrafı həndəsi formalar və güzgü parçaları ilə bəzədilmiş buxarı daha da artırır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş. Xan Sarayı 1998-ci ilin aprelindən Naxçıvan Dövlət Xalça Muzeyi kimi fəaliyyət göstərir. Muzey 8 zaldan ibarətdir, bunlardan biri Naxçıvan xanlarına həsr olunmuşdur. Yaradıldığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların



sayı 2000-dən (305 xalça) artıqdır. Burada, demək olar, bütün xalça növlərinin (xovlu: gəbə, zili və xovsuz: sumax, vərni, kilim, palaz, şəddə, cecim və s.) və xalça məmulatlarının (məfrəş, heybə, xurcun, çuval, örkən və s.) nümunələri nümayiş etdirilir. Muzeydə Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz-Naxçıvan xalçaçılıq məktəblərinə məxsus XVIII-XIX əsrlərə aid xalça nümunələri saxlanılır. Çeşnilərinə görə "Qollu çiçi", "Pirəbədil", "Alpan", "Qədim əfşan", "Ovçuluq", "Zili", "Köhnə buta", "Naxçıvan", "Qasımuşağı" və s. xalçalarla yanaşı, süjetli xalçalar [Azərbərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti toxunmuş xalça (xalq rəssamı K.Əliyev), "Leyli və Məcnun", "Qarabağ mənzərəsi", "Boz qurdlar", "Gəncə gözəli" və s.] da əhəmiyyətli yer tutur. Muzeydə məişət əşyaları - misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

***Xanəgah türbəsi-*** Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində orta əsrlərə aid edilən memarlıq abidəsidir. Orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Əlincəçay xanəgahı memarlıq kompleksinin tərkibinə daxildir. Türbə binasında qapı yerinin üstündən düşmüş kitabəli daş lövhə türbənin içərisində saxlanılır. Kitabədə türbə binasının şəhid əmir Seyyid Əhməd əl-Oğul-Şaminin oğlu, sahib əl-əzəm (vəzir) Hacı Məhəmmədin Qara-qoyunlu Cahanşah dövründə (1435-1467) oğlu Əmirxan üçün tikdirdiyi göstərilir. Giriş baştağının memarlıq elementləri Möminə Xatun türbəsinin elementlərinə oxşayır. Türbə sərdabə planında düzbucaqlı formada olub, daş və kərpicdən tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış kəc məhlulundan istifadə edilmişdir.



***İmamzadə kompleksi-*** Naxçıvan şəhərinin cənub-şərq hissəsində memarlıq abidəsidir. XVI-XVIII əsrlərdə formalaşmış-

dır. 3 binadan ibarətdir. Kompleksin özəyini planda kvadrat şəkilli, xarici görünüşünü isə kubik formalı qülləvarı türbələrdən gələn dairəvi gövdənin qovuşduğu kompozisiya-türbə təşkil edir. Türbənin içərisində əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. Qəbirin üstü sənduqə formasında düzəldilmiş, sementlə suvanmış, üstünə qara örtük salınmışdır. Qəbirin üzərində epitafiya- məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. Kitabədə tarix qeyd olunmasa da orada vurğulanan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Əbu Müzəffər şah



Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Deməli, türbə XVIII əsrin 20-ci illərində inşa etdirilmişdir. Türbənin yaxınlığında Naxçıvan şəhərinin antik və orta əsrlərdə mövcud olmuş ikinci qala divarının qalığı aşkar edilmiş, sənətkarlıq nümunələri tapılmışdır. Türbəyə bitişən, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. Kompleksdən azca aralı şimal tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpicdən inşa edilən bu türbə aşağıdan kvadratşəkilli götürülərək yuxarıda çoxbucaqlı şəkildə inşa olunmuş, üstü günbəzlə örtülmüşdür. Kompleksə daxil olan başqa tikililərlə müqayisədə bu türbə yaxşı vəziyyətdə qalmışdır. Ancaq onun içərisində heç bir qəbir və xatirə kitabəsi qalmadığından təyinatı aydınlaşdırılmamışdır. İmamzadə kompleksinə daxil olan binalar bir-biri ilə uyarlıqda olub, bitkin memarlıq ansamblı yaratmışdır. Kompleksin ətrafında orta əsrlərə aid qəbiristanlıq olmuşdur. Zaman keçdikcə buradakı qəbirlərin bir hissəsi dağılmış, bir

hissəsi isə indiyədək qalmaqdadır. Orada torpağın altından aşkar edilmiş XVI əsrə aid məzar kitabələri tədqiq edilmişdir. Burada bişmiş kərpicdən hörülmüş tağvari sərdabələrə təsadüf olunmuşdur. Zaman keçdikcə nekropolun yeri dəyişmiş və abidənin yaxınlığındakı təpəyə keçmişdir. Orta əsrlərdə ərazidə fəaliyyət göstərən bəzi sufi təriqətlərinin üzvləri kompleksdən bir müddət özlərinin yaşayış, ibadət və zikr yeri - xanəgah kimi istifadə etmişlər. Ümumiyyətlə, bu cür komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir. Ərazimizdə XVII-XVIII əsrlərdə fəaliyyət göstərən sufi təriqətləri mənsubları mövcud imamzadələrdən yaşayış, ibadət və zikr yeri kimi istifadə etdiklərindən həmin dövrlərdə bölgədə xanəgahlar inşa edilməmişdir. Memarlıq kompleksi 2004-cü ildə əsaslı şəkildə təmir olunaraq yenidən bərpa edilmişdir.

***İsmayılxan hamamı-*** Naxçıvan şəhərində, Heydər Əliyev prospekti və Təbriz küçəsinin kəsişməsində, Dədə Qorqud meydanında tarixi-memarlıq abidəsidir. XVIII əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə və ocaqxanadan ibarətdir. Ümumi sahəsi 526 $m^2$-dir. Hamam planda düzbucaqlı formadadır. Bina 20x20x5 sm ölçüdə bişmiş kərpiclə inşa edilmişdir. Hamama giriş çatmatağlı portaldandır. Portalın eksteryeri kaşılarla bəzədilmişdir. Hamamın daxilinə geniş vestübüldən, soyunma zalına isə dar keçiddən daxil olmaq mümkündür. Soyunma zalı səkkizbucaqlı formadadır. Zalın divarları boyunca 6 ədəd dərin taxça yerləşdirilmişdir. Yuyunma zalının iki keçidi var. Keçidlərdən biri digər otağa açılır. Zalın mərkəzində 2x2 m ölçüdə çarhovuz inşa edilmişdir. 108 $m^2$



sahəsi olan zalın tavanı sferik günbəzlə örtülmüşdür. Hamam zalların divarlarına yerləşdirilmiş kiçik pəncərələr və günbəzin üstündəki bacalarla işıqlandırılır. Hamamın xəzinəsi binanın qərbində, yuyunma zalına bitişik yerləşdirilmişdir. Xəzinədən açılan gözlükdən su götürülməsi üçün istifadə olunmuşdur. Hamamın su təchizatı kəhriz vasitəsilə ödənilmişdir. Xəzinənin altındakı ocaq hamamın isidilməsində əsas rol oynamışdır. Otaqlara istilik yeraltı kanallar vasitəsilə verilmişdir. Hamam Naxçıvan xanlarından biri olan İsmayıl xanın adı ilə bağlıdır. Hazırda əsaslı təmir və bərpa edilmişdir. Tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

***Köhnəqala-*** Naxçıvan şəhərinin cənub-şərqində arxeoloji abidədir. Elmi ədəbiyyatda Yəzdəgird qalası, xalq arasında Köhnəqala, Torpaqqala adları ilə tanınır. Qalanın tikilmə tarixi dəqiq məlum deyil. 1957-1959-cu illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə, saxsı qab fraqmentləri, daş gürzülər aşkar olunmuşdur. Arxeoloji tədqiqatlardan belə daş gürzülərin Tunc dövründə (e.ə.3-2-ci minilliklər) Duz mədənlərində istifadə olunduğu məlumdur. Qalanın III Sasani hökmdarı Yəzdəgirdin (632-51/52) tərəfindən inşa olunduğu ehtimal olunur. Türk səyyahı



Ö.Çələbinin verdiyi məlumata görə, monqollar qalanı dağıtmışlar. Həmin qalanı sonralar Naxçıvanda olmuş Şarden və Frehanq da xatırladırlar. Qala XVIII əsrədək fəaliyyətdə olmuşdur. 1827-ci il planında bu qala sxematik qeyd olunmuşdur. Plana əsasən qala iki hissədən - kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Böyükqala Narınqalaya nisbətən daha çox dağıntıya məruz qalmışdır. Böyükqalanın düzbucaqlı formada (185 x400 m) olan ərazisi 7400 $m^2$-dir. Narınqalaya nisbətən sonralar inşa və ya bərpa edildiyi güman edilən bu qalanın

salamat qalmış, döyməgil və çınqıl qatışığından hörülmüş divarları, kvadrat formalı (19x19x5 sm) çəhrayı və sarı rəngdə bişmiş kərpicdən tikilmiş bina qalıqları tikilinin orta əsrlərə aid olduğunu sübut edir. Böyükqala yerləşdiyi təpənin relyefinə uyğun olaraq şimal-şərq və şimal-qərb tərəfdən nisbətən düz, cənub tərəfdən isə ziqzaq şəklində inşa edilmişdir. Ziqzaqların çöl tərəfə çıxan kəsişmələri diametri 5,7 m.-dən 9 m.-dək dəyişən konusvari bürclərlə tamamlanmışdır. Böyükqalanın salamat qalmış divarlarının eni 1 т., hündürlüyü isə bəzi yerlərdə 5 m.-ə çatır. Ayrıca onu da qeyd edək ki, qalanın qərb küncündə Nuhun türbəsi və digər tikintilərin qalıqları qalmaqdadır. Qalanın kvadrat formada (150x150 m) olan Narınqala hissəsində hazırda binaların izləri qalmaqdadır. Narınqalanın çaydaşı əlavə etməklə döyməgildən hörülmüş divarlarının salamat qalmış hissələrinin qalınlığı 3,5 m -dən 4 m -ə çatır. Narınqala diametri, əsasən, 10 m olan dairəvi qüllələrə malikdir. Güman edildiyinə görə, Narınqalanın darvazası onun qərb küncündəki qüllə ilə yanaşı olmuşdur. Narınqalanı əhatə edən divarlar qalanın qərb hissəsində salamat qalmışdır. Şimal-şərq səmtindəki əksər hallarda yuxarıya doğru getdikcə nazilən dairəvi qüllələr qismən salamat halda zamanımızadək gəlib çatmışdır. Narınqalanın cənub-qərbdə 300 nəfərin gizlənə biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol, çox güman ki, Naxçıvançaya çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir. Quyulardan biri mağaranın içərisindədir. Qalanın özünəməxsus səciyyəvi xüsusiyyətlərindən biri də qalanın Böyükqala və əsas Narınqala hissələri arasında eni 22,5 m olan dar dəhliz formasında həll edilmiş çıxış yolunun – "tələ"nin təşkilindən ibarətdir. Öz qeyri-adiliyi ilə qalanın xeyli dağıdılmasına baxmayaraq, salamat qalmış qala divarlarının və bürclərinin hissələri diqqəti cəlb edir.

***Qarabağlar türbəsi-*** Orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Qarabağlar türbəsi Kəngərli rayonunun Qarabağlar

kəndindədir. Türbə memarlıq kompleksinə daxildir. Memarlıq kompleksinə daxil olan türbədən başqa burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatunun adı yazıldığından, onun Quti xatunun şərəfinə tikildiyi güman edilir.1928-ci ildə "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi M. Mirheydərzadə qoşa minarəli baştağın kitabəsində ərəb dilində bu sözlərin yazıldığını müəyyən etmişdir: "Allahın bu nişanəsi türkman Quti xatındır". Sərdabə və yerüstü hissədən ibarət Qarabağlar türbəsində qülləvarı türbələrin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Qarabağlar türbəsinin yerüstü kompozisiyasını əmələ gətirir. Çıxıntılar divarın ümumi həcmini azaltmaqla yanaşı, türbəyə qala əzəməti verir. Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Qarabağlar türbəsinin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Kitabələrin mətni şaquli qoyulmuş firuzeyi kaşılı kərpiclərdən və üfüqi düzülmüş kaşısız qırmızı kərpiclərdən tərtib olunmuş və kərpic vasitəsilə düzəldilən dəfələrlə təkrarlanan rombların içərisində yazılan "lə iləhə illəllah Məhəmmədən Rəsulallah" (Allahdan başqa Allah yoxdur, Məhəmməd (s.ə.s.) onun rəsuludur!) kəlamlarından ibarətdir. Bu isə müəyyən qədər 1322-ci il Bərdə türbəsinin ornamentli kitabəsini xatırladır. Türbənin yuxarısındakı kitabə qurşağı nəsx xətti ilə işlənmişdir. Yerliyi göy kaşıdan olan kitabə ağ hərflərlə yazılmışdır. Qarabağlar türbəsinin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq



istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şimal tərəfdəki əsas baştağdır. Qarabağlar türbəsinin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin XIV əsrin əvvəllərində tikildiyini göstərir. Qarabağlar türbəsi ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin XIV əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq məktəbinə aid olduğu, hətta Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi, Bərdə türbəsinin müəllifi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edildiyi ehtimal edilir.

***Qazançı Körpüsü***- Culfa rayonunun Qazançı kəndinin cənub tərəfində, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsidir. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur. Körpü XVI-XVII əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək yoluna xidmət edən bu körpü vasitəsi ilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir. Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55 m, uzunluğu 10,85 m, hündürlüyü 8,8 m-dir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağların haşiyə və arxivoltu təmiz yonulmuş qumdaşındandır. Bunun sayəsində tağların kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.



***Qeysəriyyə***- Ordubad şəhərində XVII əsrə aid tarixi memarlıq abidəsidir. Şəhərin mərkəzində yerləşir. Ümumi sahəsi 540 $m^2$-dir. Abidə 10x10 m olan mərkəzi səkkizbucaqlı zaldan və onun

üzərini qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 m) ibarətdir. Dayağın divarlarındakı taxçaların ölçüləri 1,4x1,45x2,2 m-dir. Dayaq taxçalarından fərqli olaraq kənar divar taxçaları çatmatağ konstruksiyalı olub, ölçüsü 3,4x1,37x3 m-dir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanıb. Abidə bişmiş kərpicdən inşa olunmuş, divarının qalınlığı 80 sm-dir. Abidənin mərkəzi, günbəzi də daxil olmaqla, ümumi hündürlüyü 8,5 m-dir. Qeysəriyyə sözunun mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə tikililərə



dünyanın 3 yerində rast gəlmək olar: Səmərqənd, Təbriz və Ordubad şəhərində. Hazırda ən görkəmlisi və abadı Ordubaddakıdır. Sonrakı dövrlərdə bu abidədən "Zorxana" kimi istifadə edilmişdir. Belə ki, zalının döşəməsi nisbətən binanın döşəməsindən aşağı olduğu üçün döşək əvəzinə dağlardan yığılmış gəvən kollarını buraya doldurub üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan və başqa yerlərdən gələn pəhləvanlar burada öz güclərini sınayarmışlar. Kim qalib gəlirdisə, hücrələrdə əyləşən xandan mükafat kimi bir kisə qızıl alırmış. XIX əsrin ortalarına yaxın Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri (yaradıcısı fars və ərəb dillərini gözəl bilən, həcv və satirik şeirlər yazan, lakin, təəssüf ki, əsərləri bizim dövrümüzə gəlib çatmayan Ordubadlı Kərbalayı Molla Əhməd adlı bir nəfər olmuşdur) Hacıağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Aşıq Abbas Dəhri, Usta Zeynal Nəqqaş, Hacı Əhməd Bikəs və başqaları bu binaya yığışıb öz yazdıqları əsərləri oxuyaraq kimin güclü yazdığını bəyan edərmişlər. Qeysəriyyə binası çar Rusiyasının hakimiyyəti dövründə üçtürləngəli feldşer Qasımın və pinəçi

İbrahimin babaları və dayıları tərəfindən qızıl pulla alınaraq ipək sarıyan sexə çevrilmişdir. Sovet hakimiyyəti dövründə binanın bir tərəfi mağaza və anbar, digər tərəfi isə aşxana kimi istifadə edilmişdir. XX əsrin axırlarında, 1978-ci ildə ordubadlı memar Zakir Haşım oğlu Babayev tərəfindən abidə yenidən bərpa edilmişdir. Qeysəriyyə binası 1981-ci ildən Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

***Miranşah piri***- Babək rayonunun Qaraqala kəndindən şərqdə, hündür təpənin ətəyində yerləşir. Pir vaxtilə qayanın təbii oyuğunda olmuş və daş inancı ilə bağlı olmuşdur. Pirin içərisi



düzgün olmayan dördbucaqlı formaya malikdir. Onun içərisində müsəlman adəti ilə dəfn aparılmış iki qəbir vardır. Baş daşlarında yazı yoxdur. Hazırda pir bərpa olunmuş və onun üzərində müsəlman məscidlərinə bənzəyən monumental abidə tikilmişdir. Pirin içərisi sütunlu olub, əsasən, iki hissəyə bölünmüşdür. Pirin silindrik formalı iki minarəsi və günbəzi aypara təsvirləri ilə tamamlanmışdır. Pirin fasadında iki qapısı və üç pəncərəsi vardır. Onlar yarımdairəvi tağlarla tamamlanmışdır. Azərbaycan xalqının qədim inancları və mifoloji görüşləri Miranşah pirini e.ə. III-II minilliklərə aid etməyə imkan verir.

***Mömünə Xatun türbəsi***- Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə Xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. Memarı Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz, arvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baş tağında kufi xətti ilə bu sözlər həkk olunmuşdur. "Biz gedirik,

ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Ümumi hündürlüyü 34 molmuş, sonralar 8 m hündürlüyündə xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda 10 bucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə Xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır. Türbə sərdabəsindəki bu quruluş sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş Möminə Xatun türbəsinin bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada həll edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 m-ə çatır. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baş tağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Kompozisiya-ya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə



və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Məşhur incəsənət tarixçisi, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.V. Alpatov türbə haqqında yazır: "XII əsr Azərbaycan ustalarının Naxçıvanda yaratdığı Möminə Xatun türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Möminə Xatun türbəsi Şərqinən gözəl klassik əsərləri-Firdovsinin “Şahnamə”si və Nizaminin “Leyli və Məcnun”u kimi əbədidir”. Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında da belə gözəl abidəyə rast gəlmək olmur. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir.XIX əsrə aid rəsm əsərlərindən və fotoşəkil-lərdən görünür ki, Möminə Xatun türbəsinin yanında monumental tikililər, o cümlədən, Came məscidi olmuşdur.

***Naxçıvan buzxanası-*** Naxçıvan şəhərində, İmamzadə kompleksinin yaxınlığında memarlıq abidəsidir. Azərbaycan Respublikasında ən böyük buzxanalardan biridir. Planda düz-



bucaqlı formada olan buzxananın uzunluğu 20 m, eni 9 m, indiki halda hündürlüyü 9,6 m-dir. Yüksək texniki səviyyədə kərpic-dən qurulmuş örtük konstruksiyası-nın mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 m-dən bir qurulan çatmavari tağlararası boşluq çatma tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin dağılmasına bax-mayaraq, kərpic hörüklərindən görünür ki, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və çox güman ki, balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Naxçıvan ərazisində buna oxşar

buzxana Ordubad şəhərində vardır. Naxçıvan buzxanasının yüksək memarlıq həlli bu abidənin Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə (XII-XIV əsrlər) tikildiyini göstərir.

***Nehrəm İmamzadəsi***- Babək rayonunun Nehrəm kəndində XVIII əsrə aid memarlıq abidəsidir. Bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən Nehrəm imamzadəsi türbə, məscid, təkyə və



s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sən-duqə formasında olub gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvarı çərçivələrdə dini xarakterli kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Kitabələr içərisində diqqəti cəlb edən "Möcüzələr sahibi Əlini çağır!" duası Bəktaşi dərvişlərinə məxsusdur. Bu dua göstərir ki, Nehrəm İmamzadəsi bir müddət xanəgah vəzifəsini yerinə yetirmiş, buradaBəktaşidərvişləri yaşayıb fəaliyyət göstərmişdir. Kompleks ətraflı tədqiq edilməmişdir.

***Nuh Türbəsi***- Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə VIII-XII əsrə aid memarlıq abidəsidir. K. A. Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində Həzrəti Nuh peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı

kimi təsvir olunmuşdur: “Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub 2,5 m dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş



sərdabə tipindədir. Rəvayətə görə həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur”. V. M. Sısoyev əsərində “Nuhun türbəsi” haqqında məlumat verərkən sərdabənin tərəfləri 2,5 m olan səkkizguşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkmişdir. Əsərdə Nuh peyğəmbərin türbəsi ilə yanaşı türbənin yerləşdiyi ərazi də təsvir edilmişdir. Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanələr vardır. Əfsanəyə görə dünya tufanı zamanı Həzrəti Nuh peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunmuş, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salmışdır. Həmin yerin Gəmiqaya adlandırılması, bu ərazidə Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlı qədim yaşayış məskəninin mövcud olması əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal etməyə əsas verir. Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun özünün və bacısının məzarlarının Naxçıvan şəhərində olması barədə məlumatlar öz əksini tapmışdır. Nuhun türbəsinin Naxçıvanda olması haqqında İ. Şopen, Dyubua-de Monpere, K. A. Nikitin, V.

M. Sısoyev və digər tədqiqatçılar məlumat vermişlər. XIX əsrin 80-ci illərində Naxçıvan şəhərində yaşayıb, pedaqoji fəaliyyətlə məşğul olmuş rus maarifçisi K.A. Nikitin (1832-1894) yerli əhalinin köməyi ilə Nuh peyğəmbərin bu qədim diyarla əlaqəsinə dair rəvayətləri toplayıb yazıya almış və onun buradakı məzarının yerini müəyyənləşdirmişdir. Nikitin 1882-ci ildə “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar” məcmuəsində çap olunmuş “Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində bu barədə müfəssəl məlumatlar vermişdir: “...Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarı və türbəsinin yerini göstərirlər. Hətta Nuhun Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti xalq arasında dolaşan rəvayətlərdə indi də saxlanılmaqdadır. Guya ki, o, burada ilk çalışanlardan olmuşdur. ...O, öz ailəsi ilə burada qərar tutmuş və gələcək şəhərin əsasını qoymuşdur. Naxçıvan şəhərinin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir... Rəvayətlərə görə insan nəsli buradan yayılmışdır.” Nuhun gəmisinin qalıqlarının Gəmiqayada olması barədə ehtimallar və rəvayətlər indi də yaşamaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun “Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında” 2006-cı il 28 iyun tarixli sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılmışdır.

***Ordubad Came məscidi-*** Orta əsrlərə aid memarlıq abidəsidir Ordubad şəhərinin mərkəzi meydanında ən hündür yerdə ucaldılıb. Məscid möhtəşəmliyi ilə diqqəti cəlb edir. Məscidin memarlıq görkəmi XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır. Cümə məscidinin şərq qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xətti ilə farsca beş sətirlik fərmanı həkk edilmişdir.1604-cü ilə aid olan bu fərmanda deyilir: “...Ordubad qəsəbəsinin bütün əhalisinin Şah Abbas Bahadur xanın xanədanına nisbət bəslədikləri məhəbbət və

fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlər-in əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə-Tusiyyə silsiləsinin fədakarlığı müqabilində Şahın müzayiqəsiz mərhəmətinin bir qisməti onlara bəxş edildi. Qeyd olunan vilayət yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlataq, nüzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq



üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın...” Məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. XVII əsrdə isə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. Bəzi mənbələrə görə, 1901-1902-cİ illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpicdəki yazıdan onun əsasının hicri 111-ci (miladi 729-ci il) ildə qoyulduğu aydın olur. Tədqiqatçılar Cümə məscidinin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şimal-şərqində mədrəsə, qərbində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987-ci ildə əsaslı surətdə bərpa olunmuşdur.

***Yusif Küseyir oğlu türbəsi-*** Naxçıvan şəhərində ən qədim memarlıq abidələrindən biridir. Şeyx Məhəmməd Xiyabani küçəsində yerləşən bu abidə xalq arasında Atababa türbəsi və ya Atababa günbəzi də adlanır. 8 əsrdən çox yaşı olan türbə XX əsrin ortalarında bərpa edilmişdir. Bərpa işləri nəticəsində

türbənin dağılmış hissələri düzəldilmiş, mühəndis qurğuları möhkəmləndirilmişdir. Abidə yeraltı sərdabədən və yerüstü qülləvarı hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəkildədir. Divarlarının qalınlığı 80 sm, 20x20x4,5 sm bişmiş kərpiclə inşa edilmişdir. Türbənin səkkizbucaqlı prizmatik gövdəsi xaricdən piramidaşəkilli, daxildən isə tavan çatma tağ şəkilli sferik günbəzlə örtülmüşdür. Türbədə biz ikiqat günbəz quruluşunun ən görkəmli, bizim zamanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş və indiyə qədər gəlib çatmış yeganə bir nümunəsini görürük. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qüllləvari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan yeganə abidədir. Türbənin üzərindəki kitabə bildirir ki, “Bu türbə xacə, sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur”. Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayı (miladi 1162) tikildiyini də bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə “Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir” şəklində türbənin memarının adı qeyd olunmuşdur. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılmış və burada kitabə yerləşdirilmişdir. Qurşaqda kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbənin yeraltı hissəsi sərdabə, yerüstü hissəsi isə xatirə qülləsindən ibarətdir. Səkkizüzlü türbənin çıxıntılı dayaqlar şəklində olan tilləri sadə hörgülü kərpicdən yaradılmışdır. Binanın qəfəsini təşkil edən bu qurğuların arasındakı sahələr (türbənin səthləri) həndəsi ornamentli tavalarla üzlənmiş, ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, gəc məhlulu ilə tava şəklində birləşdirilərək səthlərə bərkidilmişdir. Türbənin



qərbə baxan səthi digər səthlərdən fərqli olaraq, giriş baştağı şəklində tərtib edilmişdir. Ornament bəzəkləri tikilinin memarlıq formaları ilə həmahəngdir. Sərdabə ilə yerüstü hissə arasındakı günbəz də çatma tağlıdır. Sərdabə günbəzinin ortasında binanı nəmişlikdən qorumaq üçün silindrik formada xüsusi havatəmizləyici boşluq qoyulmuşdur. Sərdabəyə qərb tərəfdəki pilləkənlərlə enilir. Əsas fasaddakı giriş portalı çatma tağlı taxça, qapısı isə düzxətli tağ formasındadır. Yusif Küseyir oğlu türbəsinin həm əsas tikintisi, həm də bəzək hörgüsü bir materialla - keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Bu da abidənin saya, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli, qırmızımtıl kolorit verir. Prizmatik gövdə, piramidal günbəz, üzlərin girinti-çıxıntıları, bol işıq-kölgə çalarları ilə bu koloriti zənginləşdirir. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir.

***Zaviyə-mədrəsə binası-*** Naxçıvan şəhəri Heydər Əliyev prospekti və Təbriz küçəsinin kəsişdiyi yerdə, Zaviyə məhəlləsində tarixi-memarlıq abidəsidir. Ərəbcə guşə, künc, bucaq mənasını verən zaviyə sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir. Xanəgahlar kimi zaviyələrdə də ayrı-ayrı təriqətlərə mənsub dərvişlər yaşamış və ətraflarına müridlər



toplayaraq öz ideyalarını yaymışlar. İslam dininin yarandığı ilk yüzilliklərdə xristian rahiblərinin hücrələrini, kiçik müsəlman məscidlərini və ya ibadətxanalarını da zaviyə adlandırırdılar. Məğrib ölkələrində zaviyə məsciddən, məktəbdən, övliya məqbərəsindən, mehmanxanadan ibarət dini binalar kompleksi kimi fəaliyyət göstərirdi. Sonralar Şimali Afrika övliyaları öz şagirdləri və ardıcılları ilə birlikdə yaşadıqları binaları da zaviyə və ya ribat adlandırmağa başladılar. Ümumiyyətlə, orta əsrlər

zamanı zaviyə sufi qardaşlıqları ardıcıllarının məskənlərinin adlarından biri olmuşdur. Onlar həm də ayin və mədəni-maarif mərkəzləri sayılırdı. Orta əsrlərdə Naxçıvanda mövcud olan bəzi təriqət tərəfdarları məscidlərə getmir, özləri üçün ayrıca təkyələr, zaviyələr tikir, orada yaşayır və zikrlə məşğul olurdular. Hürufi təriqətçiləri belə zikr yerlərini xanəgah, bəktaşi və nəqşibəndilər isə zaviyə adlandırırdılar. Naxçıvan memarlıq məktəbinə aid edilən məscidin zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun XVII-XVIII əsrlərin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir. XVII-XVIII əsrlərdə Azərbaycan memarlığında əvvəlki dövrün ənənələri ilə yanaşı yeni tikinti meyilləri də özünü göstərirdi. İnşaat tiplərindəki bu dəyişiklik əsasən dini tələbatın daha geniş şəkildə ödənilməsi ilə əlaqədar idi. Zaviyə mədrəsəsinin binası ilk baxışdan düzbucaqlı formada görünsə də mürəkkəb memarlıq quruluşuna malikdir. Bina yerdən 1 m hündürlükdəki kürsülük üzərində yerləşdirilmişdir. Ümumi sahəsi 212 $m^2$-dir, divarların qalınlığı 0,9 - 1,5 m arasında dəyişir. Əsas qalınlıq 90 sm-dir. Bişmiş kərpic və əhəng məhlulu ilə inşa edilmişdir. Kərpiclər iki ölçüdədir. 20x20x5 sm olan sarı rəngli kərpiclərdən binanın əsas tikintisində istifadə olunmuşdur. XIX əsrin 2-ci yarısında məscidin əsaslı təmiri zamanı 26x13x5 sm-lik qırmızı rəngli kərpiclərdən daha çox istifadə edilmişdir. Zaviyə-mədrəsə binası istər plan quruluşu, istərsə də ayrı-ayrı hissələrin formasına görə Naxçıvandakı digər dini binalardan tamamilə fərqlənir. Çox güman ki, XIX əsrin axırlarında aparılan təmir işləri zamanı yeni tikintilər və formalar əlavə olunduğundan binanın memarlıq quruluşu xeyli dəyişdirilmiş, əvvəlki zamanların tikintisində istifadə olunan çatma tağlar və sferik günbəzlər əvəzinə, XIX əsrin mürəkkəb xətli tağları və düz dam örtüyü ilə əvəz edilmişdir. Ona görə də binanın tikilmə tarixinin dəqiqləşdirilməsi çətindir. Binanın indiki interyer quruluşu böyük ibadət salonundan, ona bitişik vestibüldən, ikimərtəbəli üç yardımçı otaqdan və dolama pilləkənləri olan minarədən ibarətdir. Salonun

və digər tikililərin sferik günbəzləri dağıdıldığından, XIX əsrin sonlarında düz xətli örtüklə əvəz edilmişdir. Binaya üç tərəfdən: qərbdən və şimaldan bir, şərq tərəfdəki həyətdən isə üç giriş qapısı var. Əsas giriş qərbdəndir. Qərb tərəfdəki düz xətli portal eyvan şəklində qurulmuşdur. Eyvana mərmər pilləkənlərlə qalxılır. Giriş portaldakı qapıdan bir tərəfi üçbucaqlı formada olan vestibülə daxil olunur. Vestibülün sahəsi 19,8 $m^2$-dir. Vestibüldən sağda hündürlüyü 5,5 m, sahəsi 88 $m^2$olan hücrə tipli ibadət salonu yerləşir. Salona şərq tərəfdən də giriş var. Salonun şərq və qərb divarlarının hər birində 0,9x3,2 m ölçüdə üç ədəd şəbəkəli pəncərə qoyulmuşdur. İbadət salonunun mehrabı 1,7x5,15x5,5 m ölçüdə cənub divarda ayrıca bölmə şəklində yerləşdirilmişdir. Mehrabın çatma tağlı taxçası və digər bəzəkləri çoxsaylı təmir nəticəsində suvaqla doldurularaq düz səthə çevrilmişdir. Vestibüldən solda iki qapı var. Qapılardan biri minarənin dolama pilləkənlərinə, digəri isə yardımçı otaqlara açılır. Qadınlar üçün nəzərdə tutulmuş ikinci mərtəbədəki otaqlara taxta pilləkənlərlə qalxılır. Buradakı ibadət otağı ilə əsas salon arasında pəncərə var. Binanın əsas fasadı mərkəzdə yerləşdirilmiş eyvanlı portaldan, üç ədəd uzunsov şəbəkəli pəncərədən və çox da hündür olmayan minarədən ibarətdir. Əsas fasadla uzlaşmayan antablement və tikintinin başını dövrələyən çatma tağ motivli parapet binaya sonradan əlavə edilmişdir. Antablementdəki dörd düzbucaqlı sütun çıxıntıları və mərkəzdə yerləşdirilmiş dairəvi boşluqlar binanın fasadında tamamilə yad element kimi görünür. XX əsrdə binadan klub, pionerlər evi, dini idarə və s. məqsədlər üçün istifadə olunmuşdur. 2007-ci ilədək Naxçıvan MR Qadınlar Məclisi burada yerləşmişdir. 2008-ci ildə əsaslı təmir və bərpa olunmuşdur.

# Milli mətbəx

Öz xalqının tarixini bilmək böyük xoşbəxtlikdir. Mədəniyyət tariximizin hər bir səhifəsi maraq doğurur. Bu səhifələri vərəqlədikcə ulu babalarımızın keçdiyi böyük həyat yolu gözlərimiz qarşısında canlanır. Tariximizi, mədəniyyətimizi öyrəndikdə yaddaşlarımız möhkəmlənir, Vətənin hər qarış torpağına məhəbbətimiz daha da artır.



Unutmamalıyıq ki, Vətən torpağının hər qarışında baba və nənələrimizin söhbətləri, el sözləri, geyim-keçimləri, yeyib-içdikləri, yaraq-yasaqları, bayram, qonaqlıq, yas, matəm mərasimləri əbədiləşərək əmanət kimi bizə çatdırılıb. Bu əmanətlərdə bizə bəlli olmayan hələ çox səhifələrin vərəqlənməsinə, öyrənilməsinə ehtiyac var. Bütün bunları düşündükcə nurani-pirani babalarımızın dilimizin əzbərinə çevrilən "Ocağının tüstüsü əskik olmasın!", "Çırağın sönməsin!", "Ocağının oduna qurban olum!" ifadələri yada düşür. Bir daha ata sözümüz qulağımızda səslənir: "Əmanətə xəyanət olmaz". Minilliklərin dərinliyindən gələn, cilalandıqca qiyməti artan bu əmanətləri qorumaq və yaşatmaq hər birimizin borcudur.Xalqımızın tarix səhifələrində mətbəx mədəniyyəti, qidalanmaq fəlsəfəsi və psixologiyası zaman keçdikcə təkmilləşib, dəyişikliklərə uğrayaraq bu günümüzə qədər gəlib çatmış mədəniyyətin formalarından biri kimi bu gün də maraq doğurmaqdadır. Qədim diyarımız, ata mülkümüz Naxçıvanda da ulu babalarımız bu sahədə özünəməxsus cəhətləri ilə seçilən bir əmanəti bizə miras qoyub getmişlər. Mətbəx, yemək mədəniyyətimiz bölgənin etnoqrafik xüsusiyyətlərini araşdırmaq baxımından tarixçilərimizdə, etnoqraf və arxeoloqlarımızda həmişə maraq doğurmalıdır.

Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış materiallara əsasən demək

mümkündür ki, Eneolit və ondan sonrakı dövrlərdə də diyarımızda xörək, yemək məhsulları hazırlamaq üçün ayrıca yerlər olmuşdur. Bunu ərazimizdə xörək hazırlamaq, çörək bişirmək üçün xüsusi yerlərin olması, müxtəlif məişət əşyalarının, qabların tapılması da sübut edir. Arxeoloji tədqiqatlar göstərir ki, daşdan keramikaya, saxsı çanağa, ondan sonra metala keçilməsi məişətdə böyük dəyişikliklərə gətirib çıxarmışdır. Mətbəx mədəniyyətimizin tarixini öyrənmək, məişətimizi araşdırmaq baxımından bütün bunlar dəyərli etnoqrafik mənbələrdir.

Qab-qacaq, məişət əşyaları da zaman keçdikcə dəyişikliyə uğramışdır. Bununla belə qab-qacaqların, məişət alətlərinin bir çoxu bu gün də həyatımızda yerini qorumaqdadır. Son zamanlar arxeoloji qazıntılar nəticəsində meydana çıxan ocaqlar, təndirlər, un hazırlamaq üçün alətlər, qab-qacaq, qazan və s. nəzər saldıqda bu tarix göz önündə canlanır. Bu qab-



qacaqların və məişət əşyalarının adlarında da tarix öz izini saxlayır. Dilimizdə işlənən ata sözlərində də qab-qacaq, ocaqla bağlı kifayət qədər sərrast ifadələr vardır.

Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərində və muxtar respublikanın digər ərazilərində aparılan arxeoloji tədqiqatlar nəticəsində bu sahədə xeyli materiallar toplanmışdır.

Naxçıvan ərazisində tapılmış dairəvi gil ocaq qurğusu, yaxud, qədim diyarımızın ərazisində tapılmış kələ-kötür divarlı qazan yə çölmək tipli qab qırıntıları bu torpağın yemək-içmək, məişət mədəniyyətinin minilliklərə söykəndiyindən xəbər verir. Arxeoloji tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, ərazimizdə Eneolit dövründə keramika məmulatından istifadə edilmişdir. Orta Tunc dövründə Naxçıvan ərazisində dulusçuluq sənətində bir sıra mühüm dəyişikliklər olmuşdur. Bəşəriyyət tarixində ən böyük ixtiralardan olan dulus çarxının hazır-

lanmasından xəbərdar olan ulu babalarımız yüksək keyfiyyətli şirli məişət qabları hazırlamışlar.

Naxçıvan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş quyulardan ağ rəngli bitki çürüntülərinin tapılması və onlarda taxıl saxlanılması fikrinin irəli sürülməsi, eyni zamanda ərazimizdən yaşı 5 min ildən artıq olan ibtidai aşsüzənin-çətənin aşkarlanması burada əkinçiliyin çox qədim dövrlərdə inkişaf etdiyini göstərir. Naxçıvan ərazisində tapılan müxtəlif ocaq qurğuları və s. qədim əcdadlarımızın bişirmə işinə xüsusi diqqət və əhəmiyyət yetir-diklərini göstərir.



Zaman keçdikcə qədim Naxçıvan sakinlərinin həyat və məişətində - maldarlıqda, əkinçilikdə və ayrı-ayrı sənətkarlıq növlərində güclü yüksəliş, milli mətbəx mədəniyyətimizin inkişafına aparan yollar aydın görünür. Qədim çölmək, qazan, kasa, kuzə, küp, müxtəlif tipli qab-qacağın formalarındakı rəngarənglik diyarımızda bu sahənin yüksək inkişaf etdiyini göstərir. Qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində tapılmış gil nehrələr e.ə. IV -III minilliklərə aid edilir.

Naxçıvan Muxtar Respublikası ərazisində uzun illər arxeoloji tədqiqatlar aparan və bu sahədə dəyərli tədqiqatların müəllifi olan AMEA-nın müxbir üzvü Vəli Əliyev yazır: “Naxçıvanın qədim mədəniyyəti üçün səciyyəvi sayılan boyalı qabları şəhər mədəniyyətinin mühüm xüsusiyyətlərindən biri hesab etmək olar. Naxçıvan Qafqazın qədim mədəniyyət ocaqlarından fərqlənir və təsadüfi deyildir ki, Naxçıvanın boyalı qabları Yaxın Şərqin əsas qədim şəhər mədəniyyəti mərkəzlərinin (Mesopotamiya, Urmiya, Elam və s.) boyalı qabları ilə müqayisə edilə biləcək səviyyədədir”.

Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən müxtəlif dövrlərə aid məişət əşyaları mətbəx mədəniyyətimizin çox qədim dövrlərdən mövcudluğunu göstərir.

Naxçıvan Muxtar Respublikası ərazisində toplanmış etnoqrafik materiallara əsasən demək mümkündür ki, diyarımızda mətbəxin digər adları da mövcud olmuşdur: təndirbaşı (və ya təndirəsər), qəfəxana, biş-düş damı, əl damı və i. a.

Naxçıvan ərazisində istifadə olunan yeraltı və yerüstü təndirlərdə xalqımız zaman-zaman lavaş, təndir çörəyi, müxtəlif xörəklər, bayram yeməkləri bişirmişdir.



Milli mətbəximizdə dəridən (motal, tuluq və s.), ağacdan hazırlanmış qablardan (nehrə, toxmaq, oxlov, irəfətə, çəpərə, taxta qaşıq və s.) Naxçıvan ərazisində tarix boyu istifadə edilmişdir.

Diyarımızda bişirilən dolma, tas-kabab, təndirkabab, yarma aşı, əriştə aşı, daş küftəsi, bozbaş, lüləkabab və s. bölgənin xüsusiyyətlərini özündə göstərməkdədir.Azərbaycan, o cümlədən Naxçıvan mətbəxində plovun yeri həmişə görünür. (Azərbaycanın bəzi bölgələrində bu xörək növünə "aş" deyilsə də, Naxçıvanda "plov" sözü işlənir).

Naxçıvan mətbəxində çörəyə ehtiram göstərilmiş, atalarımız "çörək süfrəmin başıdır" ifadəsini həmişə işlətmişlər. Naxçıvan ərazisində əsrlərdən bəri qurudulmuş lavaşları bir neçə ay saxlayaraq istifadə etmişlər. Etnoqrafık mənbələrdə Naxçıvan torpağında arpa unundan hazırlanmış somun çörəyinin hazırlanması da göstərilir.

Nənə və babalarımızın əsrlər boyu böyük zövqlə yedikləri umac, xəşil, quymaq, əriştə, yarma aşı Naxçıvanın bölgələrində həvəslə bişirilməkdədir. Bütün bunlar onu göstərir ki, Azərbaycan mətbəxindəki xəmir xörəkləri bölgəmizdə də öz yerini qoruyub saxlamışdır.

Naxçıvan mətbəxinə xas olan ət yeməkləri (əsasən qoyun, eyni zamanda cavan mal əti, müxtəlif ev quşlarının əti) - qovurma, bozbaş, qovurma şorbası, bozpört, kəllə-paça, kabab, arzuman küftəsi, cəviz küftəsi, daş küftəsi, yarpaq, kələm, badımcan,

pomidor, soğan dolmaları və s. bu kimi xörəklərimiz yüksək zövqlə və ləziz hazırlanır, dadı və tamı ilə seçilməkdədir.

Bölgələrimizə xas olan quş ətindən hazırlanmış xörəklər Naxçıvan mətbəxində həmişə özünəməxsus yer tutmuşdur. Xüsusilə, toyuq yumurtasından hazırlanmış kükü, şamı qayğanaq və s. xörəklər bu gün bölgəmizdə çox dadlı hazırlanır. Balla hazırlanan Ordubad qayğanağı da belə xörəklər sırasındadır. Naxçıvan Muxtar Respublikası ərazisində yüksək inkişaf etmiş heyvandarlıq bölgənin süd və süd məhsulları ilə bağlı yeməklərində də özünü göstərmişdir. Tarix boyu bölgənin əhalisi qatıq, pendir, qaymaq, ayran, şor, dovğa, süd aşı, qatıq aşı və s. ilə də qidalanmışdır. Bu gün də bölgəmizdə qatıq çalmaq üçün işlədilən mayaya "çalası" deyilməkdədir.

Naxçıvan mətbəxi qənnadı məmulatı, şirniyyatlarla, müxtəlif şərbət və içkilərlə də zəngindir. Bu gün bölgəmizdə qədim əsrlərin dərinliyindən gələn tut, üzüm doşabını hazırlayanlar az deyildir. Mətbəximizdə hazırlanan zoğal, gilas, gilənar, heyva, ərik, əncir, cəviz, almaxara, üzüm, qarpız, böyürtkən, qızılgül mürəbbələri çay süfrələrimizin bəzəyidir.

Bütün bu zəngin və ləziz mətbəx nümunələrimizlə bərabər diyarımızın mətbəx mədəniyyətinin, fəlsəfəsinin, psixologiyasının kökündə duran ən mühüm xüsusiyyəti də qeyd etmək vacibdır - qonaqpərvərlik, qonağa hörmət hissi. Naxçıvanda bütün evlərdə "qonaq otağı" ifadəsi hələ də işlənir.

Naxçıvan mətbəxi təkcə ləziz yeməkləri, şirniyyatları, mürəbbələri ilə deyil, dadlı, tamlı duzu ilə də tanınır. Naxçıvan duzu dünyada istehsal olunan duzlar içərisində ən keyfiyyətlisi və faydalısıdır.




Naxçıvan Muxtar Respublikasi ərazisində, Naxçıvan şəhərinin yaxınlığında duz mədəni vardir. Arxeoloqların gəldikləri nəticəyə görə, bu mədəndən hələ çox qədim zamanlardan istifadə edilmişdir. Duz şaxtasında ibtidai insanların işlətdikləri alətlər aşkara

çıxarılmışdır. Vaxtilə, dəvə karvanları Naxçıvandan bir çox ölkələrə duz aparmışdır. Naxçıvan mətbəxində işlədilən duz xüsusi toxunmuş duz kisələrində saxlanırdı.

Duz mühüm ərzaq növüdür və qidanın tərkib hissəsidir. İnsan orqanizmində 230 qr. duz olur. Duzun çatışmaması qanın qatılaşmasına, saya əzələlərin qıc olmasına, sinir sistemi və qan dövranı funksiyalarının pozulmasına səbəb ola bilər. Duzun artıq işlədilməsi də orqanizmdə müəyyən xəstəliklərə gətirib çıxara bilər. Mətbəxdə daş duz, iri döyülmüş mətbəx duzu və narınlanmış ağ süfrə duzu istifadə edilir. Xalq təcrübəsi iri əzilmiş mətbəx duzuna daha üstünlük verir. Naxçıvanda belə duza “xır duz“ deyilir. Azərbaycanda iqlim şəraiti isti olduğundan orqanizmdə su-duz mübadiləsi qərb xalqlarından fərqli olaraq daha intensiv getdiyi üçün orqanizmin duza tələbatı daha çoxdur. Ona görə də qərb xalqları bir pay xörəyə iki qr. duz, azərbaycanlılar isə bir paya 5 qrama qədər duz işlədirlər. Duzun tamı onun tərkibində olan mikroelementlərin nisbətindən və miqdarından asılıdır. Bu baxımdan Naxçıvan duzu yumşaq hesab edilir. Mətbəximizdə duzun çox işlədilməsinin bir səbəbi də budur. Naxçıvan duzu başqa duzlardan fərqli olaraq hipertoniya xəstəliyi əmələ gətirmir və bu baxımdan keyfiyyətli duz hesab edilir. Duz təkcə xörəklərin hazırlanmasında deyil, həm də turşuların, şorabaların hazırlanmasında, ətin qaxac edilməsində, balıq məhsullarının, qurut, pendir və s. ərzaq məhsullarının hazırlanmasında və saxlanmasında istifadə edilir.

# Ədəbiyyat

## Kitablar

### 2010

**1.Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan**/ tərt. İ. M. Hacıyev; red. H. Səfərli.- Naxçıvan: Əcəmi NPB, 2010.- 384 s.

**2.Xalqın azadlığı uğrunda mübarizə Heydər Əliyevin həyat amalı idi**: Naxçıvan dövrü haqqında xatirələr /Əkbər Axundov; red. Ə. Ə. Sayilov.- Bakı: Araz, 2010.- 208 s.

**3.Naxçıvan folkloru antologiyası**/ AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu; tərt.: M. A. Cəfərli, R. Babayev; red. M. A. Cəfərli .-I cild.- Naxçıvan: Əcəmi NPB, 2010.- 506 s.

**4.Naxçıvan Muxtar Respublikasının Konstitusiyası**.- Bakı: Adiloğlu, 2010.- 32 s.

**5.Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı/** AMEA Naxçıvan bölməsinin Bioresurslar İnstitutu, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi; tərt.: T. H. Talıbov, Ə. Ş. İbrahimov II cild: Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər.- Naxçıvan: Əcəmi NPB, 2010.- 677 s.

**6.Naxçıvan tarixi atlası**/ Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi; ön sözün müəl. V. Y. Talıbov; red. heyəti: İ. M. Hacıyev [et al.].- Bakı: Bakı kartoqrafiya fabriki, 2010.- 56 s.

**7.Naxçıvan teatrının salnaməsi: 1883-2008** /Əli Qəhrəmanov, S. İbrahimov, F. Cəfərov; elmi red. İ. M. Hacıyev.- Naxçıvan: Əcəmi NPB, 2010.- 734 s.

**8.Naxçıvanın zəngin təbiəti** /Qaşdar Əliyev; red. Ə. N. Quliyev.- Bakı: Adiloğlu, 2010.- 211 s.

**9.Nuh peyğəmbər, Dünya Tufanı və Naxçıvan:** 24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları / AMEA Naxçıvan bölməsi, AMEA A.A. Bakıxanov adına Tarix

İnstitutu, Naxçıvan Dövlət Universiteti; red. heyəti İ. M. Hacıyev [et al.].- Naxçıvan: Əcəmi NPB, 2010.- 300 s.

**2011**

**10.Naxçıvan folkloru antologiyası** / AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu; tərt.: M. A. Cəfərli, Y. Səfərov, R. Babayev; red.: M. A. Cəfərli, R. Babayev.-II cild.- Naxçıvan: Əcəmi NPB, 2011.- 496 s.

**11.Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı:** 1828-2002-ci illər: monoqrafiya / Tofiq Cəfərov.- Yenidən işlənmiş və əlavə edilmiş II nəşri.- Bakı: Mütərcim, 2011.- 472 s.

